

Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident İlham Əliyev: Trampa qarşı siyasi zorakılıq aktını şiddətlə qınayırıq



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
16 iyul 2024-cü il, çərşənbə axşamı
№ 124 (6710)
Qiyməti 60 qəpik

# Bakının siması daha da gözəlləşir



## Prezident İlham Əliyev Nərimanov parkının açılışında iştirak edib

Bax səh. 2

# ABŞ-də qlobal təhlükəsizliyə atılan güllə...

Bax səh. 3

## Qarabağ Bəyannaməsinin icrasına start verilir...

Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri "yaşıl enerji"-nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalamağa hazırlaşır. Saziş yalnız üçtərəfli əməkdaşlıq sahələrini əhatə edəcək, tərəflər arasındakı mövcud ikitərəfli əməkdaşlıq və fəaliyyət müqavilələrinə təsir etməyəcək. Sənəd bərpaolunan enerji mənbələri, enerji səmərəliliyi, hidrogen, enerji infrastrukturu, həmçinin rəhbər komitə və işçi qrupunun yaradılması kimi məsələləri əhatə edir.

Qeyd edək ki, 3 qardaş ölkənin "yaşıl enerji" üzrə vahid siyasət təşəbbüsləri bir neçə gün əvvəl Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən birini təşkil edir, sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpa olunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə (Yaşıl dəhliz) dəstəyini ifadə edib. Sənəddə, həmçinin türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq "yaşıl enerji"nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.

Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında strateji tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı yüksələn templə davam edir və hər iki ölkənin dövlət başçılarının qarşılıqlı...

Bax səh. 5



Bax səh. 3

## YAP Mərkəzi Aparatında müşahidəçilər üçün təlim keçirilib

## "Aİ-95" ucuzlaşdı...

Bax səh. 6

## Borrell Macarıstana qarşı...

Bax səh. 6

## Teatrda güllələnən, qanqrena olan, soyuqda bəxti gətirən ABŞ prezidentləri....

Bax səh. 5

## Azyaşlıların və körpələrin Aşura mərasimində iştirakı...

**Sağlamlıq və təhlükəsizlik baxımından məqsədəuyğun deyil**

Bu gün Məhərrəm ayının 10-cu günü, Aşura günüdür. Qeyd edək ki, Hicri təqvimi ilə 61-ci, miladi təqvimi ilə isə 680-ci ildə Kərbəla düzündə baş vermiş qeyri-bərabər döyüşdə İslam peyğəmbəri Həzrəti Məhəmmədin (s) nəvəsi, IV İslam xəlifəsi, şiələrin birinci imamı Həzrəti Əli ibn Əbu Talibin oğlu İmam Hüseyn və ailə üzvləri Yezid ibn Müaviyənin göstərişi ilə qətlə yetirilib. Bu tarix əsrlərdir ki, İmam Hüseyn tərəfdaları tərəfindən yas günü kimi qeyd edilir.

Qeyd edək ki, Aşura günü Azərbaycanda da xüsusi qaydada qeyd olunur, məscidlərdə əzadarlıq edilir, qanvermə mərasimi keçirilir. Uzun illər bu mərasimlər fərqli ayinlərlə keçirilsə də, son vaxtlarda əsasən məscidlərdə qanvermə aksiyaları baş tutur, ehtiyacı olan insanlar üçün donor toplanır. Bu kimi humanist addım isə Aşura fəlsəfəsi ilə tam uyğun gəlir - insanın özünə qəsd etməsini və ya xəsarət yetirməsini istisna edən İslam dini daima birliyi, humanizmi təbliğ edir. O baxımdan, İmam Hüseyn təziyələrinin formatına bu kimi humanist ştrixlərin gətirilməsi olduqca mühüm əhəmiyyət daşıyır.

Ali dəyərlərə malik dinimizdə insanın özünə qarşı hər hansı bir xəsarət yetirməsi birmənalı şəkildə bəyənilmir, qəbul olunmur. "Təzəpir", "Bibiheybət" məscidlərində, eləcə də digər şəhərlərimizdə və rayonlarımızda ehtiyacı olanlar üçün qanvermə aksiyalarının təşkil edilməsi, yığılan qanın ehtiyatı...

Bax səh. 4



# "HƏMAS" Parisi ifşa etdi

Bax səh. 7

# Türkiyəyə qardaşlıq və vəfa borcumuz...

## Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb



Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb. Məktubda bildirilir: "15 İyul hadisələrinin səkkizinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, ailələrinə və bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm. Qardaş Türkiyənin qan yaddaşına əbədi olaraq həkk olunmuş bu gecədə baş vermiş mənfur çevriliş cəhdi ölkənizin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi. Müdrik və mərd Türkiyə xalqı Vətən, dövlətçilik və demokratiya uğrunda qətiyyətlə mübarizə apararaq və sinəsini sipər edərək növbəti dəfə qəhrəmanlıq dastanı yazdı. Bu hadisələr ilə əlaqədar təsis edilmiş 15 İyul - "Demokratiya və Milli Birlik Günü" mətin xalqınızın həmrəylik, mübarizlik və milli birlik rəmzi olaraq daim yaşayacaq və əsrlər ötdükcə daha böyük qürurla xatırlanacaqdır.

Türkiyə dövlətçiliyinə qarşı yönəlmiş bu çevriliş cəhdinin dəf olunmasında və bununla da ölkənizi böyük faciələrdən xilas edilməsində şəxsən Sizin gördüyünüz təxirəsalınmaz qəti addımların və liderliyinizin xüsusi rolu olmuşdur. Xalqınız Sizin ətrafınızda sıx birləşərək dövlətinə, azadlığına və demokratiyasına sahib çıxmaqla dünyaya milli qürurunu, gücünü və sarsılmaz iradəsini bir daha sübut etdi.

Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən bu xəyanəti şiddətlə qınamış və həmişə olduğu kimi qardaş Türkiyə dövlətinin və xalqının yanında yer almışdı. Bu bizim sevincimizi və kədərimizi birgə paylaşdığımız Türkiyəyə qardaşlıq və vəfa borcumuz idi.

Hörmətli cənab Prezident, bu yaxınlarda Sizinlə Astanada görüşümüzü, apardığımız ətraflı fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram. Əminəm ki, dostluğa, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrini, çoxşaxəli əməkdaşlığını və strateji müttəfiqliyini genişləndirmək, dünyada bənzəri olmayan dövlətlərarası münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırmaq naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".



# Prezident İlham Əliyev: Trampa qarşı siyasi zorakılıq aktını şiddətlə qınayırıq

Prezident İlham Əliyev ABŞ-ın Pensilvaniya ştatında Respublikaçılar Partiyasının builki prezident seçkilərində namizədi Donald Trampa qarşı təşkil olunmuş sui-qəsdlə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Prezident Trampa qarşı edilən hücum şok və dəhşət doğurur. Biz bu siyasi zorakılıq aktını şiddətlə qınayırıq. Prezident Trampın tezliklə sağalmasını arzu edirik".

# Yeni parklar, yaşıllıq zolaqları

## Bakının siması daha da gözəlləşir

## Prezident İlham Əliyev Nərimanov parkının açılışında iştirak edib

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 15-də Bakının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda yaradılan şərait barədə məlumat verib. Qeyd edək ki, ərazisi 4,1 hektar olan park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb.







Məlumat verilib ki, şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib.

Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Mühəndis-kommunikasiya xətləri əsaslı şəkildə yenilənən park yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlərlə təmin edilib.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

# Azərbaycan regional inkişafa töhfə verir

## Sülh gündəliyi aydın məzmuna malikdir

Milli maraqlar üzərində qurulan multiregional xarici siyasət kursuna malik olan Azərbaycan müxtəlif beynəlxalq təsisatlarla fəal əməkdaşlığı uğurla davam etdirir. Elə bu günlərdə Prezident İlham Əliyev ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidi qəbul edib. Qəbul zamanı hazırda aktual olan bir sıra məsələlərlə bağlı müzakirələr aparılıb və dövlətimizin başçısı ölkəmizin mövqeyini diqqətə çatdırıb.

**Ümumi həmrəylik naminə səylər davam edəcək**

Bu gün dünyanın mənzərəsi bir çox cəhətdən arzuedilən deyil. Qütbləşmə meyllərinin artdığını müşahidə edirik. Ayrı-ayrı regionlarda qanlı müharibələr gedir. Yeni müharibə riskləri, o cümlədən də nüvə təhdidləri artıb.

Geosiyasi vəziyyətin pik həddədək gərginləşdiyi belə bir şəraitdə dünya həm də qlobal iqlim dəyişmələrinin yaratdığı fəsadlarla təhdid olunur. Bütövlükdə, təhdidlərin miqyası çox böyükdür. İqlim dəyişikliyinin təsirləri həyatın bütün sahələrində özünü büruzə verir. Açıq statistikaya əsasən planetimizdə son yüz il ərzində havanın illik temperaturu 1 dərəcə artıb. Ən dəhşətlisi odur ki, temperaturun 0,75 dərəcə artımı son onilliyə təsadüf edir. Yer üzündə həyatın tam məhv olması üçün isə temperaturun 10-15 dərəcə artması kifayətdir. Xəbərdarlıq edilir ki, əgər temperaturun artması belə davam edərsə, onda 130-200 ildən sonra Yerdə həyat mövcud olmayacaq.

Mövcud təhlükəli reallıqlar fonunda yaranan aktual çağırışlar dünyada həmrəyliyə nail olunmasının zəruriliyini artırıb. Azərbaycanın yanaşması ondan ibarətdir ki, yaranan qlobal təhdidlərə beynəlxalq həmrəyliyi gücləndirməklə daha səmərəli şəkildə cavab vermək mümkündür. Son illərin təcrübəsi göstərir ki, ölkəmiz həmrəylik təşəbbüslərini yalnız söz xatirinə gündəmə gətirmir, praktiki müstəvidə buna özünün sanballı töhfələrini verir. Azərbaycanın müxtəlif məsələlərə münasibətdə həmişə ədalətli mövqe ortaya qoyması, zəruri hallarda dəstək çağırışlarına fəal şəkildə qoşulması bütün dünyada ölkəmizə və onun Liderinə böyük rəğbət qazandırıb. Bu gün Azərbaycan İslam dünyasının önəmli dövlətlərindən biri hesab olunur. Ölkəmiz bu coğrafiyadan olan ölkələri birləşdirən ayrı-ayrı təşkilatların fəal üzvüdür. Eyni zamanda, Azərbaycan Avropa İttifaqına (Aİ) daxil olan müxtəlif dövlətlərlə strateji tərəfdaşlıq sənədləri imzalayıb. Bu gün respublikamız Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ölkəmiz öz siyasətinə gələcəkdə də sadiq qalacaq. Qəbulda bunu diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının əvvəlki sədri və hazırda bu təsisatın "Troyka"sında olan, həmçinin Avropa İttifaqı ilə yaxın əlaqələrə malik ölkə kimi müxtəlif tərəflər arasında körpülərin qurulması və ümumi həmrəyliyin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb.

Azərbaycan BMT-nin ən böyük tədbirlərindən biri olan COP29-a ev sahibliyini öz üzərinə götürməklə hazırda aktuallığı artan iqlim çağırışlarına həssas yanaşmasını növbəti dəfə ortaya qoyub. Bununla bağlı qərar ötən ilin dekabrında Dubayda baş tutan COP28 çərçivəsində verilib. BMT-nin əsas iqlim konfransına ev sahibliyi hüququnun ölkəmizə həvalə olunması Azərbaycana beynəlxalq səviyyədə etimadın artmasının göstəricisidir. Məsuliyyətli dövlət olan Azərbaycan indiyədək müxtəlif beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edib və özünün yüksək standartlarını müəyyənləşdirib. Bu baxımdan COP29-un da uğurla keçəcəyinə heç bir şübhə yoxdur. Hazırda respublikamızda iqlim konfransına intensiv hazırlıqlar görülür. Dövlətimizin başçısı Azərbaycanın COP29-la bağlı çoxsaylı tədbirlər keçirəcəyini xüsusi qeyd edib. Görüşdə COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran və bu tədbirdə iştirak edəcəyini bir daha vurğulayan Helqa Mariya Şmid COP29 çərçivəsində ölkəmizlə ATƏT arasında yaxından əməkdaşlığın həyata keçirildiyini bildirib.



COP29-un gündəliyi də kifayət qədər geniş əhatə dairəsinə malikdir. Azərbaycan iqlim çağırışları ilə əlaqədar mübahisələrə son qoyulmasını və substantiv razılaşmaların əldə olunmasını istəyir. Hazırda hər bir ölkə iqlim çağırışları ilə əlaqədar bu və ya digər dərəcədə təsirlənir. Ancaq bu, okenda yerləşən kiçik ada dpövlətləri üçün bir mövcudluq məsələsidir. Buna görə də onlara real kömək göstərilməlidir. Qəbulda dövlətimizin başçısı ölkəmizin yaşıl keçid siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışıb. Prezident İlham Əliyev inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu deyib və "Commonwealth" təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını bildirib.

**Regional əlaqələrin əhəmiyyəti**

Görüşdə regional bağlantılar məsələsi müzakirə olunub. Bu məsələnin müzakirəyə çıxarılması təsadüfi deyil. Hazırkı geosiyasi reallıqlar fonunda nəqliyyat bağlantılarının önəmi heç vaxt olmadığı qədər kəskin artıb. Bir çox dəhlizlərin risk altında olduğunu nəzərə alan ölkələr və şirkətlər daha təhlükəsiz marşrutlar axtarırlar.

Belə bir şəraitdə nəzərlər həm də respublikamıza yönəlir. Azərbaycanda aparılan ardıcıl siyasət, möhkəm daxili sabitlik, müasir infrastruktur, ölkənin eyni vaxtda bir neçə beynəlxalq dəhlizin üzərində yerləşməsi, qonşularla xoş mərama əsaslanan münasibətlər bu cəlbediciliyi şərtləndirən əsas məqamlardır. Son illərdə Azərbaycan öz imkanlarını təqdim etməklə Şərq-Qərb, Şimal-Cənub dəhlizlərinin və Transxəzər marşrutunun (Orta Dəhliz) funksionallığının artmasına sanballı töhfələr verib. Bunun nəticəsidir ki, qeyd olunan marşrutlar üzrə daşımalar əhəmiyyətli dərəcədə artıb. Qəbulda Xəzər dənizi və Qara dəniz yaşıl dəhliz layihəsinin əhəmiyyətinə toxunan Helqa Mariya Şmid ATƏT-in gündəliyində yaşıl limanlar layihəsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb və Ələt Beynəlxalq Dəniz Ticarət Limanına xüsusi maraq göstərdiyini diqqətə çatdırıb. Qonaq regional ətraf mühit monitorinq mərkəzinin yaradıldığını dyib və bu çərçivədə əməkdaşlıq məsələlərinə toxunub. Bütövlükdə, ATƏT-in gündəliyində iqtisadiyyat və ətraf mühit məsələlərinin önəm kəsb etdiyini və bu layihələrin etimad quruculuğuna töhfə verdiyini vurğulayıb.



**Ermənistan ərazi iddialarına konstitusional əsasda son qoymalıdır**

Bəhs olunan qəbulda regional sülh gündəliyi məsələləri ilə bağlı da fikir mübadiləsi aparılıb. Postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesi gazırda beynəlxalq səviyyədə diqqətlə izlənilir. Bu məsələdə qalib Azərbaycan ardıcıl və konstruktiv yanaşma ortaya qoyur. Məhz Azərbaycan müharibə başa çatdırdan az sonra qarşı tərəfə beş bənddən ibarət sülh paketi təqdim edib. Son vaxtlarda Prezident İlham Əliyevin təşəbbüsü əsasında danışıqlar əsasən ikitərəfli formatda aparılır və müəyyə irəliləyişlər əldə olunub.

Bununla belə, məğlub Ermənistan sülh danışıqlarında bir sıra hallarda manipulyativ davranışlar sərgiləməklə bütövlükdə prosesləri ləngidir. O cümlədən bu ölkənin qanunvericilik aktlarında, Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən müddəaların yer alması Ermənistan rəhbərliyinin danışıqlarda səmimi olduğuna şübhələr yaranmasına əsas verir. Bəhs olunan qəbulda dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyinə sadiqliyini vurğulayıb və sülh müqaviləsinin imzalanması üçün Ermənistanın konstitusiyasında dəyişikliklərin aparılmasının, Azərbaycana qarşı ərazi iddialarına konstitusional əsasda son qoyulmasının vacibliyini qeyd edib. Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı nəticəsində ərazilərimizin kütləvi şəkildə minalarla çirkləndiyini deyərək, 370-ə yaxın insidentin baş verdiyini, çoxlu sayda insanın mina partlayışları nəticəsində həlak olduğunu və yaralandığını da diqqətə çatdırıb.

Beləliklə, Azərbaycanın sülhə sadiqliyi növbəti dəfə qətiyətlə təsdiqlənir. Bunun üçün ilk növbədə Ermənistan özünün əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülh üçün ilkin və əsaslı şərt məhz budur - Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına idldia ortaya qoyur. Azərbaycan isə haqlı olaraq Ermənistan Kosntitusiyasının dəyişikliiynə ehtiyac duyulduğunu önə çəkir - rəsmi İrəvan Konstitusiyasında dəyişiklik etməklə sülh üçün maraqlı olduğunu isbat edə bilər. Hər iki dövlətin rəsmiləri açıq şəkildə bildirirlər ki, artıq bütün detallar üzrə müzakirələr yekunlaşmaq mərhələsindədir. Ötən ilin sentybarında baş tutan antiterror tədbirlərinin uğurlu nəticəsi sülh prosesi ilə bağlı mənzərəni daha da aydınlaşdırıb - artıq Ermənistanın manipulyasiya imkanları əlindən alınıb. İndiki məqamda yeganə əsas problem və başlıca şərt Ermənistanın konstitusiyasının dəyişdirilməsidir.

***M.ABDULLAYEV***

# Səmərəli tərəfdaşlıq, uğurlu nəticələr

## Əli Əsədov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 15-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Roland Prays ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlıq çərçivəsində həyata keçirilən və müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurlu nəticələri təqdir olunub.

Hazırda icra olunan layihələrin gedişi, həmçinin Dünya Bankının fəaliyyət istiqamətlərinə və Azərbaycanın inkişaf prioritetlərinə uyğun olaraq bankın 2025-2029-cu illəri əhatə edəcək yeni Ölkə Tərəfdaşlıq Çərçivəsinin hazırlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Azərbaycan ilə Dünya Bankı arasında bir sıra sahələrdə, o cümlədən COP29 çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.



# YAP Mərkəzi Aparatında müşahidəçilər üçün təlim keçirilib





İyulun 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar YAP-ın Tədbirlər Planına uyğun olaraq səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslərin təlimatlandırılması məqsədilə



müşavirə keçirilib.

Təlim zamanı seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı izahat və məlumat verilib.

Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.

# Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini bərpa edib

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında aparılmış danışıqlar nəticəsində 2024-cü il iyulun 15-dən etibarən ölkəmizin İrandakı səfirliyi yeni ünvanda fəaliyyətini bərpa edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin yaydığı məlumatda bildirilib ki, səfir və səfirliyin hazırkı heyəti İrana geri dönüb.



İran tərəfi akkreditasiya ölkəsi kimi “Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyası” çərçivəsində təhlükəsizliyin təminatına dair öhdəliyinə uyğun olaraq səfirliyimizin yeni binasının qarşısında diplomatik mühafizənin təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirib. Hazırda İrandakı səfirliyin yeni binasında konsulluq xidmətinin təşkili üçün müvafiq işlər görülür və yaxın zamanda konsulluq xidmətinin bərpası barədə əlavə məlumat veriləcək. Səfirlik Tehran şəhəri, Dərrus məntəqəsi, Şəhrizad prospekti, Yarməhəmmədi küçəsi, Saqi dalanı və Firuzkuh küçəsinin kəsişməsi, ev 8 ünvanında yerləşir. Səfirliyin işinin bərpası qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin gələcək inkişafına, iki ölkə arasında əldə edilmiş razılaşmaların və həlli zəruri olan məsələlərin icrası işinə töhfə verəcək.

# MSK seminarlara başlayıb

## DSK ekspert qrupu üzvlərinin işgüzar vərdişləri daha da təkmilləşdirilir

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi, o cümlədən müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının (MSK) genişmiqyaslı kampaniyası ardıcıl və sistemli şəkildə davam edir.

AZƏRTAC xəbər verir ki, MSK-nın Milli Məclisə seçkilərlə əlaqədar fərqli istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən maarifləndirmə proqramı çərçivəsində növbəti tədbirlərə - seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan regional seminarlara start verilib. Ümumrespublika miqyaslı layihə qarşıdan gələn seçkilərdə vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasına, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

Layihənin açılışı və ilk seminar iyulun 15-də Komissiyanın inzibati binasında MSK sədrinin müavini Rövzət Qasımovun giriş nitqi ilə başlayıb. Tədbirdə MSK nəzdində ekspert qrupunun üzvləri, Katibliyin aidiyyəti struktur bölmələrinin əmək-



daşları, həmçinin Bakı və ətraf rayonların 52 seçki dairəsi üzrə dairə seçki komissiyalarının müraciətlərin araşdırılmasına məsul 156 eksperti iştirak edib.

Seminarda MSK nəzdində ekspert qrupunda təmsil olunan Komissiya üzvlərinin seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına dair təqdimatları dinlənilib. Əyani vəsaitlərdən də istifadə olunmaqla keçirilən təqdimatlarda seçki hüququnun pozulmasını iddia edən subyektlərin müraciətləri zamanı qarşıya çıxan məsələlər, şikayət və müraciətlərin xarakteri, araşdırılma müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, ekspert qrupu üzvlərinin həyata keçirəcəyi tədbirlər, qərarların qəbulu və tərtibi, eləcə də digər mühüm məsələlər ətraflı şəkildə izah edilib. Seminara qatılan dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərinə MSK tərəfindən hazırlanan Yaddaş kitabçası da təqdim olunub.

Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi, müraciət və şikayətlər, o cümlədən ekspert fəaliyyəti ilə bağlı fərqli kazuslar üzrə məşğələlər keçirilib, iştirakçılar sınaq testlərinin həllinə cəlb edilib.

Sonda fikir mübadiləsi və müzakirələr aparılıb, həmçinin iştirakçıları maraqlandıran məqamlara aydınlıq gətirilib. Regional seminarların növbəti mərhələsinin iyulun 17-də Gəncə, Naxçıvan, Şəki və Masallıda keçirilməklə ümumilikdə ölkə üzrə 125 seçki dairəsi dairə seçki komissiyalarının bütün ekspert qrupu üzvlərini əhatə etməsi nəzərdə tutulur.

# ABŞ-də qlobal təhlükəsizliyə atılan güllə...

Ötən şənbə bütün dünya Amerika Birşəşmiş Ştatlarında (ABŞ) baş verən terror hadisəsi ilə silkələndi. Hadisə zamanı Pensinvaliyada tərəfdarları qarşısında çıxış edən prezidentliyə namizəd Donald Tramp güllələndi. Sabiq prezident sırf təsadüf nəticəsində ölümdən qurtula bildi. Çıxışı zamanı başını azacıq böyük ekrana tərəf əyməsi Trampın həyatını xilas edib - güllə onun sadəcə, qulağını sıyırıb. Bundan sonra mühafizəçilər dərhal Trampı səhnədən uzaqlaşdırıblar. Hadisə zamanı D.Tramp sırf təsadüf nəticəsində həyatda qalsa da, baş verən hadsə ciddi mülahizələrə yol açır.

**Heç bir dövlət terrordan sığortalanmayıb**

Pensilvaniyada baş verənlər hazırda qlobal təhlükəsizliklə bağı çağırışların nə qədər aktual olduğunu bir daha gündəmə gətirdi. Son vaxtlarda dünyanın ayrı-ayrı nöqtələrində baş verən oxşar hadisələr ondan xəbər verir ki, qlobal təhlükəsizlik arxitekturası mükəmməl deyil.

ABŞ-nin Federal Təhqiqatlar Bürosu prezidentliyə namizəd Donald Trampa edilən hücumu “sui-qəsd cəhdi” kimi təsnifatlandırıb. ABŞ özünü bir qayda olaraq dünyaya bütün parametrlər baxımından “etalon dövlət” kimi təqdim edir. Ancaq baş verən hadisə heç bir dövlətin - hətta o, ABŞ kimi supergüc olsa belə - terror hadisələrindən, təxribatlardan sığortalanmadığını bir daha təsdiqlədi. Qarşıdan gələn seçkilərlə bağlı keçirilən tədbirdə prezidentliyə namizədə atılan güllə çox doğru olaraq qlobal təhlükəsizliyə atılan güllə anlamında qəbul olunur. Bəli, sərt mübarizə tədbirləri görülməsinə rəğmən, terrorçular ayıq-sayıqdırlar və onlar hansısa dairələrdən aldıqları sifarişləri yerinə yetirməkdən ötrü hər zaman hər yerdə görünə bilərlər. Çox doğru deyiblər ki, terrorçuların milliyyəti və Vətəni olmur.

**Azərbaycanın birmənalı mövqeyi**

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-nin Pensilvaniya ştatında Respublikaçılar Partiyasının builki prezident seçkilərində namizədi Donald Trampa qarşı təşkil olunmuş sui-qəsdlə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda deyilir: “Prezident Trampa qarşı edilən hücum şok və dəhşət doğurur. Biz bu siyasi zorakılıq aktını şiddətlə qınayırıq. Prezident Trampın tezliklə sağalmasını arzu edirik”.



Dövlətimizin başçısının ABŞ-də baş verən qanlı hadisəyə dərhal münasibət bildirməsi və onu pisləməsi Azərbaycanın mükəmməl qlobal təhlükəsizlik arxitekturasının qurulmasına birmənalı qətiyyətli mövqe sərgilədiyini bir daha təsdiqləyir. Respublikamız qlobal təhlükəsizliyin təmin olunması ilə bağlı çağırışları həmişə dəstəkləyib və buna praktiki müstəvidə öz töhfələrini verib. Azərbaycan Ordusunun sülhməramlı kontingenti 1999-cu ildən etibarən ayrı-ayrı coğrafiyalarda aparılan sülhməramlı əməliyyatlarda iştirak etməkdədir. O cümlədən hərbiçilərimiz 1999-cu ilin sentyabr ayından 2008-ci ilin mart ayınadək Kosovoda sülhün yaradılması və dəstəklənməsi üzrə keçirilən əməliyyatlarda iştirak edib. BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qərarının tətbiqi məqsədilə Azərbaycan Ordusunun sülhməramlı bölüyü 15 avqust 2003-cü il tarixindən 7 dekabr 2008-ci il tarixinədək 152 nəfərlik şəxsi heyətlə İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində xidmət göstərib. Missiya dövründə İraqın Əl-Hədisə şəhəri yaxınlığında ABŞ Dəniz Piyadası Komandanlığı tərkibində su anbarının və su elektrik stansiyasının mühafizəsini həyata keçirən bölük, Koalisiya Qüvvələrinin İraqdan çıxması ilə əlaqədar 7 dekabr 2008-ci il tarixində missiyasını yekunlaşdıraraq geri qayıdıb. Ölkəmizi təmsil edən sülhməramlı kontingentin Əfqanıstanda “Qətiyyətli Dəstək” missiyasının tərkibində aktiv iştirakı hər kəsə yaxşı məlumdur. Məlum hadisələr zamanı hərbçilərimiz Əfqanıstan paytaxtının hava limanını ən axırıncı tərk edənlərdən olublar. Sülhməramlılarımız hava limanında 120 mindən çox insanın təxliyəsinə töhfə veriblər. Respublikamızın beynəlxalq təhlükəsizliyə dəstəyinin davamı olaraq, Azərbaycan Ordusu 2019-cu ilin yanvar ayında BMT-nin Cənubi Sudan Respublikasında keçirdiyi Sülhməramlı Missiyaya (UNMISS) qoşulub.



Bundan başqa, Azərbaycanın 44 günlük müharibənin nəticələrinə uyğun olaraq Cənubi Qafqazda yaratdığı yeni reallıqlar regional və bununla paralel olaraq qlobal təhlükəsizliyin təmin olunması üçün geniş perspektivlər açıb. Artıq dünya üçün çox vacib olan, qlobal nəqliyyat bağlantılarının mühüm məntəqələrindən biri sayılan coğrafiyanı təhlükəsizliyə təhdid risklərindən birdəfəlik azad etmək üçün fürsət pəncərələri açılıb və bundan istifadə olunmalıdır. Qalib Azərbaycan müharibə səhifəsini bağlamaq, gələcəyə baxmaq əzmindədir. Ölkəmiz davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün davamlı səylər göstərir.

**Dünya selektiv yanaşmalardan xilas olmalıdır**

Pensilvaniyada baş verənlər bir daha o həqiqəti gündəmə gətirdi ki, qlobal təhlükəsizliyə təhdid hallarına qarşı mübarizədə hansısa boşluqlara yol verilməməlidir. Dərk olunmalıdır ki, dünya bizim ümumi evimizdir, onu vahid mexanizmlərlə birlikdə qorumalıyıq. Təəssüf doğuran haldır ki, biz dünyada bir sıra hallarda oxşar məzmunlu problemlərə fərqli yanaşmaların şahidi oluruq. Bir sıra hallarda təcəvüzkarlar, qlobal təhlükəsizliyə təhdid yaradanlar anındaca sərt şəkildə cəzalandırılırlar. Digər hallarda isə belə qətiyyətli davranışlar sərgilənmir, terror hadisələrinə adekvat qiymət verilmir, təcəvüzkar ölkələrə qarşı hətta BMT səviyyəsində qəbul olunan sənədlərin icrası qayğısına qalınmır. Otuz il davam edən münaqişə dövründə təcəvüzkar Ermənistanın cəzalandırılmaması buna əyani sübutdur. Halbuki məhz bu ölkənin məsuliyyətsizliyi və təcəvüzkarlıq siyasəti ucbatından Cənubu Qafqaz regionunun təhlükəsizliyi ciddi şəkildə pozulmuşdu. Qlobal təhlükəsizliyə təhdid hallarına qarşı bəzən ikili standartlardan yanaşılması, selektiv qaydada tədbirlər görülməsi təhlükəli presedentlərə yol açır və yeni-yeni coğrafiyalarda qanlı olaylar baş verir.

Daha bir fakta diqqət çəkmək istərdik. Regionda qalıcı təhlükəsizlik mühiti yaratmaq əzmində olan qalib Azərbaycan təxminən üç onillik ərzində ərazilərimizdə separatizmlə məşğul olan, qanlı cinayətlərin törədilməsinə, sərvətlərimizin talanmasına, şəhər və kəndlərin minalanmasına bilavasitə rəhbərlik etmiş bir neçə terrorçunu həbsə almağa nail olub. Onlar hazırda istintaq altındadırlar və qanuni şəkildə cəzalarını alacaqlar. Ancaq nə deyirsiniz, bəzi Avropa ölkələri və təsisatları həmin cinayətkar şəxslərin azadlığa buraxılmalarına nail olmaqdan ötrü dəridən-qabıqdan çıxırlar, hətta şantaş, qarayaxma kampaniyalarına əl atırlar. Baş verən hadisə bir reallığı yenidən aktuallaşdırdı - terror himayə etməyə hətta çalışmaq belə terrorla eyni cərgədə dayanmağa bərabərdir. Bu mənada Avropa strukturlarının terrorçulara azadlıq tələbləri anlaşılan deyil - Azərbaycandan terrorçulara azadlıq istəyənlər ABŞ-də, Avropada və bütün dünyada təhlükəsizliyə yaranan təhdidləri görmürlərmi?

***Mübariz ABDULLAYEV***

# Türk xalqının qəhrəmanlıq dastanı - 15 İyul...

## 2016-cı ildə baş verən dövlət çevrilişi cəhdindən səkkiz il ötür

**Terror elə bir bəşəri bəladır ki, onun qanlı izlərinə dünyanın bütün nöqtələrində rast gəlmək mümkündür. Qardaş Türkiyə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə dəhşətli terror hadisəsi ilə silkələndi. Qeyd olunan tarixdən bizi artıq səkkiz illik zaman məsafəsi ayırır. Bu günlərdə Prezident İlham Əliyev həmin hadisələrin növbəti ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb. Dövlətimizin başçısı 15 İyul hadisələrinin səkkizinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad etdiyini, ailələrinə və bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verdiyini vurğulayıb.**

### Din pərdəsi altında gizlənən FETÖ

Baş verənlərin isti izlərlə araşdırılması nəticəsində terror hadisələrinin FETÖ tərərfindən törədildiyi müəyyənləşdirildi. FETÖ-nün təmsilçiləri isə uzun müddət din pərdəsi altında gizlənməyi və təşkilatlanmış şəbəkə qurmağı bacarmışdılar. Ancaq şəbəkənin üvləri özlərini müxtəlif adlar altında dini-ideoloji cərəyan nümayəndələri kimi təqdim etsələr də, bu cərəyanın və yaxud qurumun İslam dininə hansısa bir bağlılığı olmayıb. Söhbət yalnız müqəddəs dini dəyərlərdən alət, çətir kimi istifadə etməklə çirkin məqsədlərin həyata keçirilməsindən gedirdi. Qeyd edək ki, FETÖ Fətullah Gülənin başçılığı ilə 1960-cı ilin sonlarında qardaş Türkiyənin İzmir şəhərində təşəkkül tapıb, sonradan gülənçilər fəaliyyətlərini bütün Türkiyə ərazisində və bir sıra digər ölkələrdə həyata keçirməyə başlayıblar.

Bütövlükdə, FETÖ-nün dinə bağlılığı yalnız zahiri olub. Reallıq ondan ibarətdir ki, bu təşkilat fərqli ideologiya və məqsədlər əsasında yaradılaraq fəaliyyət göstərib. Fəaliyyət istiqamətlərini ümumiləşdirdikdə bəlli olur ki, bu qurum bütünlüklə siyasiləşib və okeanın o tayından gələn təlimatları həyata keçirməklə məşğul olub. Gülənçilər siyasi məsələlərə müdaxilə etməkdən çəkinmirdilər. Klassik din terroru qınayaraq onu inkar edir. İslamla azca tanışlığı olan hər kəsə məlumdur ki, bu dində, ümumiyyətlə, zorakılığa yer yoxdur. Məhəmməd peyğəmbərin (s) müharibə qanunlarına nəzər salsaq, müharibədə ələ keçirilmiş ərazilərdə qadınları, uşaqları, yaşlıları, xəstələri, din adamlarını, təslim olanları, heyvanları öldürməyi, ağacları kəsməyi, əsirlərlə pis rəftar etməyi, ibadət yerlərini dağıtmağı, meyitlərə ziyan vurmağı qadağan etdiyini görərik. FETÖ camaatına isə son məqsədə çatmaq üçün bütün vasitələrə əl atmaq, hətta öldürməkdən çəkinməmək təlimatları aşılanıb. Bu da soyuq müharibədən sonra Qərbdə İslamın timsalında yeni bir düşmən obrazının yaradılması ilə bağlıdır. İslamofob dairələrin əlində alətə çevrilən FETÖ terror əməllərinə sövq edilməklə həm də müqəd-



dəs dinimizin gözdən salınmasına xidmət etmiş oldu. Əgər bir sıra qanlı terror əməllərinin altında FETÖ-nün imzası dayanırdısa, bəlli dairələrdən ötrü İslama qarşı hücuma keçmək, bu dinin daşıyıcılarını diskriminasiyaya məruz qoymaq üçün bundan yaxşı bir fürsət ola bilərdimi?

Səkkiz il bundan əvvəl qardaş Türkiyədə baş verənlər dövlət terroruna cəhd idi. Prezident İlham Əliyev məktubunda vurğulayıb ki, qardaş Türkiyənin qan yaddaşına əbədi olaraq həkk olunmuş həmin gecədə baş vermiş mənfur çevriliş cəhdi ölkəninin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi.

İslamofob dairələr tərəfindən istiqamətləndirilən və tamamilə siyasiləşmiş FETÖ-nün məlum terror hadisələrini törətməkdə məqsədi radikal şəriət qanunları ilə idarə

### Türkiyənin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd

olunan dövlət qurmaq olub. FETÖ illər boyu Türkiyədə və bir sıra digər ölkələrdə paralel hökumətlər, dövlət içində dövlət qurmağa doğru irəliləyib. Gülənçilər bunu öz aralarında "demokratik yolla hakimiyyətə gəlmək" formulu kimi də dəyərləndirirdilər. Əvvəlcə qeyri-hökumət təsisatları vasitəsilə cəmiyyətlərdə tərəfdaşların sayı artırılır, sonra həmin tərəfdaşların müxtəlif idarəetmə strukturlarında vəzifə piramidalarında yüksəlişi təmin edilirdi. Bunu biz Türkiyənin timsalında da izlədik. Qadaş ölkədə gülən camaatının dövlətə nüfuz etməsi o həddə çatmışdı ki, hətta FETÖ təmsilçiləri orduda da özlərinə yer edərək şəbəkələşmişdilər. Şoranlıq ərazilərdə qrunt suları qəfil üzə çıxdığı kimi, Türkiyədə də gülənçilər dövlət hakimiyyətində elə üzə çıxacaq və hakimiyyəti ələ aldıqlarını bəyan edəcəkdilər.

Hadisələr zamanı daha əvvəl orduda yerləşdirilmiş gülənçilər və FETÖ-yə bağlı olan qüvvələr legitim hakimiyyəti hərbi yolla ələ keçirmək məqsədi güdürdülər. Əslində, FETÖ-nün əli ilə törədilən bu hadisələrin ssenarisi imperialist güc mərkəzlərinin mətbəxində hazırlanmışdı. Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyətləri və onun rəhbərliyi ilə Türkiyənin özünün milli maraqlarını qətiyyətlə qoruması, ədalət prinsipinin hər yerdə bərqərar olmasına güclü səy göstərməsi təkqütblü dünya formalaşdırmağa çalışan güc mərkəzlərini qane etmir. Həmin güc mərkəzləri qardaş ölkənin bu və digər uğularını sinirə bilmirlər. Qarşılarında sözəbaxan, idarəolunan Türkiyə görmək istəyən həmin qüvvələr Türkiyəni inkişafdan, demokratiyadan geri döndərmək üçün müxtəlif planlar qurur, ssenarilər hazırlayırlar. Səkkiz il bundan əvvəl qardaş ölkədə baş verənlər bunu növbəti dəfə təsdiqlədi.



### Türkiyə xalqının müdrik seçimi

Lakin FETÖ və digər satqın qüvvələrlə birləşən imperialist güc mərkəzlərinin qurduqları dövlət terroru planları 15 iyul 2016-cı il tarixində növbəti dəfə iflasa uğradı. Milyonlarla insan dövləti xilas etmək, Prezident R.T.Ərdoğanla həmrəylik nümayiş etdirmək üçün ayağa qalxdı. Bu böyük gücün qarşısında FETÖ, ona himayədarlıq edən qüvvələr dayana bilmədilər və məğlubiyyətə uğradılar. "Müdrik və mərd Türkiyə xalqı Vətən, dövlətçilik və demokratiya uğrunda qətiyyətlə mübarizə apararaq və sinəsini sipər edərək növbəti dəfə qəhrəmanlıq dastanı yazdı. Bu hadisələr ilə əlaqədar təsis edilmiş 15 İyul - "Demokratiya və Milli Birlik Günü" mətin xalqınızın həmrəylik, mübarizlik və milli birlik rəmzi olaraq daim yaşayacaq və əsrlər ötdükcə daha böyük qürurla xatırlanacaqdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Mənfur dövlət çevrilişinin planlarını hazırlayanların əsas məqsədlərindən biri Türkiyəni lidersizləşdirmək, Rəcəb Tayyib Ərdoğanı fiziki cəhətdən məhv etmək idi. Bacarmadılar. Elə terror aktının qısa müddətdə dəf edilməsində əsas amillərdən biri qismində də Rəcəb Tayyib Ərdoğanın liderliyi çıxış etdi. R.T.Ərdoğan Türkiyədə ümumxalq məhəbbət qazanan bir Liderə çevrilib. Türkiyə cəmiyyətinin Ona rəğbəti getdikcə artır. Buna görə də insanlar həmin qanlı gecədə R.T.Ərdoğanın çağırışına səs verərək terrorçulara qarşı dirəniş göstərdilər. Məktubunda diqqəti Türkiyə Prezidentinin liderliyinə çəkən Prezident İlham Əliyev vurğulayıb: "Türkiyə dövlətçiliyinə qarşı yönəlmiş bu çevriliş cəhdinin dəf olunmasında və bununla da ölkənizi böyük faciələrdən xilas edilməsində şəxsən Sizin gördüyünüz təxirəsalınmaz qəti addımların və liderliyinizin xüsusi rolu olmuşdur. Xalqınız Sizin ətrafınızda sıx birləşərək dövlətinə, azadlığına və demokratiyasına sahib çıxmaqla dünyaya milli qürurunu, gücünü və sarsılmaz iradəsini bir daha sübut etdi".

Bəli, 2016-cı il iyulun 15-də baş verənlər həqiqətən də qəhrəmanlıq dastanı idi. Terrorçular qarşılarında heç vaxt duruş gətirə bilməyəcək qüvvə ilə - türk xalqı ilə qarşılaşdılar. Öz liderinin - Prezident Rəcəb Tayyib Ərdoğanın çağırışından sonra küçə və meydanlara axışan türk xalqı terror təşkilatının dövlət çevrilişi cəhdinin qarşısını mətanətlə aldı və demokratiyaya sadiqliyini nümayiş etdirdi. Həmin gecə Türkiyə terrorla mübarizədə 251 şəhid verdi. 2016-cı il 15 iyul gecəsi Türkiyə və dünya tarixində mühüm yeri olan hadisədir.

### Qardaş dəstəyi...

Dünyada Azərbaycan və Türkiyə qədər hər cəhətdən bir-birinə yaxın olan digər iki dövlət tapmaq çətindir. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə əsaslanan əlaqələr zamanın sınağından uğurla çıxıb və indiyədək heç bir kənar qüvvə bu əlaqələrə hansısa bir formada zərər vura bilməyib. Bizi birləşdirən bir çox amillər var. İlk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstərirlər. Şuşa Bəyannaməsi ilə Azərbaycan və Türkiyənin müttəfiqlik münasibətləri rəsmən təsdiqlənib. İki qardaş ölkənin indiki liderləri ulu öndər Heydər Əliyevin, böyük Mustafa Kamal Atatürkün ənənələrini eyni ardıcıllıqla davam etdirərək daha da zənginləşdirirlər. Rəcəb Tayyib Ərdoğan ölkəmizə xitabən həmişə "Can Azərbaycan" ifadəsini işlədir. Prezident İlham Əliyev isə Azərbaycan-Türkiyə münasibətlərini "bir yumruq" kimi səciyyələndirib. Xatırladaq ki, artıq tarixdə qalan Qarabağ münaqişəsinin həllində Türkiyə hər zaman Azərbaycanın haqq işinə dəstək verib. Bu dəstək 44 günlük Vətən müharibəsi dövründə də davam etdi. Müharibənin ilk günündən başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla Türkiyə rəsmilərinin verdikləri bəyanatlar Azərbaycanın özünə inam hissini artırdı. Eyni həmrəyliyi Azərbaycan da dəfələrlə qardaş Türkiyəyə münasibətdə sərgiləyib. Türkiyədə baş verən dəhşətli zəlzələnin elə ilk saatlarından respublikamızdan qardaş ölkəyə dəstək göstərildi və bu dəstək indi də davam edir.



Təbii ki, həmin gecə Azərbaycan xalqının da ürəyi qardaş Türkiyə ilə döyünürdü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi. "Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən bu xəyanəti şiddətlə qınamış və həmişə olduğu kimi qardaş Türkiyə dövlətinin və xalqının yanında yer almışdı. Bu bizim sevincimizi və kədərimizi birgə paylaşdığımız Türkiyəyə qardaşlıq və vəfa borcumuz idi", - deyə Prezident İlham Əliyev bildirib.

Xüsusi olaraq vurğulamaq yerinə düşər ki, o gərgin günlərdə də Türkiyə xalqına və onun qanuni hakimiyyətinə öz dəstəyini ifadə edən ilk dövlət məhz Azərbaycan oldu. Türkiyədə baş verənlərə rəsmi Bakı əsl qardaşlıq, müttəfiqlik və strateji tərəfdaşlıq mövqeyindən yanaşdı - Prezident İlham Əliyev Türkiyə rəhbərliyinə dəstəyini ifadə edən xüsusi mesaj göndərdi. Beləliklə də, hər zaman qardaş ölkənin milli mənafeyini əsas götürən, öz dəstəyini əsirgəməyən Azərbaycan bu dəfə də - bir daha və yenə də Türkiyənin yanında yer aldı, dostluq və qardaşlıq örnəyi nümayiş etdirdi.

***MÜBARİZ***

# Azyaşlıların və körpələrin Aşura mərasimində iştirakı...

## Sağlamlıq və təhlükəsizlik baxımından məqsədəuyğun deyil

Bu gün Məhərrəm ayının 10-cu günü, Aşura günüdür. Qeyd edək ki, Hicri təqvimi ilə 61-ci, miladi təqvimi ilə isə 680-ci ildə Kərbəla düzündə baş vermiş qeyri-bərabər döyüşdə İslam peyğəmbəri Həzrəti Məhəmmədin (s) nəvəsi, IV İslam xəlifəsi, şiələrin birinci imamı Həzrəti Əli ibn Əbu Talibin oğlu İmam Hüseyn və ailə üzvləri Yezid ibn Müaviyənin göstərişi ilə qətlə yetirilib. Bu tarix əsrlərdir ki, İmam Hüseyn tərəfdarları tərəfindən yas günü kimi qeyd edilir.

Qeyd edək ki, Aşura günü Azərbaycanda da xüsusi qaydada qeyd olunur, məscidlərdə əzadarlıq edilir, qanvermə mərasimi keçirilir. Uzun illər bu mərasimlər fərqli ayinlərlə keçirilsə də, son vaxtlarda əsasən məscidlərdə qanvermə aksiyaları baş tutur, ehtiyacı olan insanlar üçün donor toplanır. Bu kimi humanist addım isə Aşura fəlsəfəsi ilə tam uyğun gəlir - insanın özünə qəsd etməsini və ya xəsarət yetirməsini istisna edən İslam dini daima birliyi, humanizmi təbliğ edir. O baxımdan, İmam Hüseyn təziyələrinin formatına bu kimi humanist ştrixlərin gətirilməsi olduqca mühüm əhəmiyyət daşıyır.

Ali dəyərlərə malik dinimizdə insanın özünə qarşı hər hansı bir xəsarət yetirməsi birmənalı şəkildə bəyənilmir, qəbul olunmur. "Təzəpir", "Bibiheybət" məscidlərində, eləcə də digər şəhərlərimizdə və rayonlarımızda ehtiyacı olanlar üçün qanvermə



aksiyalarının təşkil edilməsi, yığılan qanın ehtiyatı tallassemiyalı xəstələrə və digər ehtiyacı olanlara verilməsi xalqımızın bu nəcib tarixə münasibətinin təcəssümüdür. Ümumiyyətlə, İmam Hüseyn tərəfdarlarının haqqın, mənəviyyatın saflığı uğrunda şəhadətə yetişdiyi bu müqəddəs günlər bədbinlik əhval-ruhiyyəsinin təlqini kimi deyil, Vətən, iman və yaşam sevgisinin təcəssümü, fədakarlıq və dəyanət örnəyi kimi səciyyələndirilməli, bu istiqamətdə təbliğ olunmalıdır və ölkəmizdə də məhz təziyələr bu istiqamətdə aparılır. Bəli, Məhərrəm ayı Həzrət Peyğəmbərin buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi aydır və əzadarlıq məclislərində, təziyələrdə zəncir vurub baş yarmaq, bədənə xəsarət yetirmək əvəzinə qanvermə aksiyalarının təşkili humanist ənənə kimi İslamın əsl məqsədlərini bir daha təbliğ edir, dünyaya yayır.

Eyni zamanda, bu kimi dini əzadarlıq tədbirlərində sıxlıqların yaşanması da sirr deyil. Bu mənada, yaşanma ehtimalı yaranan hər hansı bir təhlükənin qarşısını almaq üçün cəmiyyət olaraq əl-ələ verməliyik. Bəzi hallarda Aşura mərasimlərinə, əzadarlıq tədbirlərinə azyaşlı, hətta körpələrin aparılması halları da baş verir ki, bu da müəyyən təhlükələr yaradır - isti havada sıxlığın yaşanması, izdiham arasında həmin azyaşlıların xəsarət alması ehtimalı yaranır ki, bu da müəyyən mənfi nəticələrə yol aça bilər. Bu mənada, azyaşlıların və körpələrin sağlamlığı və təhlükəsizliyi baxımından onların bu kimi tədbirlərə gətirilməsi və iştirakı məqsədəuyğun deyil.



Qeyd edək ki, bununla bağlı Daxili İşlər Nazirliyi (DİN) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi vətəndaşlara müraciət edib. Muraciətdə bildirilir ki, dini etiqad azadlığı haqqında" Qanuna əsasən, dini mərasimlər yalnız məscid və ziyarətgahların ərazisində keçirilməlidir. Bütün mərasimlər zamanı, o cümlədən cari ilin iyulun 7-dən başlayan Məhərrəm ayında dini ibadət yerlərində təhlükəsizliyin təmin edilməsi və yollarda nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün müvafiq tədbirlər görülür: "Bəzi hallarda valideynlərin azyaşlı uşaqlarını dini ayinlərin icra olunduğu məkanlara aparması halları müşahidə olunur. Valideynlərdən xahiş edirik ki, kütləvi mərasimlərin keçirildiyi yerlərdə, o cümlədən təziyə məclislərində azyaşlı uşaqların iştirakının onların təhlükəsizliyi və sağlamlığı baxımından məqsədəuyğun olmadığını nəzərə alsınlar, habelə qanunvericiliklə icazə verilməyən hallara yol verilməməsinə diqqətlə yanaşsınlar.

Hər bir şəxsin həyatının, sağlamlığının, hüquqlarının, qanuni mənafelərinin qorunması məqsədi daşıyan bu müraciətə həssas yanaşacağınıza ümid edir, anlayışınıza görə təşəkkür edirik".

***MƏNSUR***

# Qarabağ Bəyannaməsinin icrasına start verilir...

Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalamağa hazırlaşır. Saziş yalnız üçtərəfli əməkdaşlıq sahələrini əhatə edəcək, tərəflər arasındakı mövcud ikitərəfli əməkdaşlıq və fəaliyyət müqavilələrinə təsir etməyəcək. Sənəd bərpaolunan enerji mənbələri, enerji səmərəliliyi, hidrogen, enerji infrastrukturu, həmçinin rəhbər komitə və işçi qrupunun yaradılması kimi məsələləri əhatə edir.

Qeyd edək ki, 3 qardaş ölkənin “yaşıl enerji” üzrə vahid siyasət təşəbbüsləri bir neçə gün əvvəl Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan Qarabağ Bəyannaməsinin əsas bəndlərindən birini təşkil edir, sazişdə əsas hədəflərdən biri kimi üzv ölkələr arasında bərpa olunan enerji sahəsində birgə əlaqələrin vahid iqtisadi blokda birləşdirilməsi öz əksini tapıb. Bəyannamənin 11-ci bəndində TDT ölkələri bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla enerji sahəsində strateji tərəfdaşlığın daha da artırılması və bu çərçivədə Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsinə (Yaşıl dəhliz) dəstəyini ifadə edib. Sənəddə, həmçinin türk dövlətləri tərəfindən bərpaolunan geniş enerji potensialının imkanları nəzərə alınaraq “yaşıl enerji”nin üzv dövlətlər və üçüncü ölkələr də daxil olmaqla ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişaf etdirilməsi bəyan olunub.



Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında strateji tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı yüksələn templə davam edir və hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər, hökumət nümayəndə heyətlərinin görüşləri, biznes-forumların keçirilməsi iqtisadi hərarəti daha da dərinləşdirməkdədir. Hər 3 ölkə iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını da əsas gündəliyə çevirib və regionda yeni yaradılan enerji-kommunikasiya, nəqliyyat xətlərində birgə təmsil olunmaq iradələrini nümayiş etdirməkdədir. Son dövrlərdə qlobal miqyasda geosiyasi mürəkkəb proseslərin dərinləşməsi Mərkəzi Asiya regionunda da təşəbbüskarlığı aktivləşdirib, həm Türk Dövlətləri Birliyi, həm də Avropa İttifaqı (Aİ) ilə inteqrasiyaya xüsusi önəm verən Qazaxıstan və Özbəkistan Azərbaycanın illərdir ki, bu proseslərdə fəal rolunu və mövqeyini, təcrübəsini nəzərə alaraq ölkəmizin sayəsində Şərq-Qərb ailəsinin üzvünə çevrilmək istəyir.

Qazaxıstan, Özbəkistan və Azərbaycan “yaşıl enerji” dəhlizi ilə bağlı ilk niyyət protokolunu hələ 2 ay əvvəl imzalayıb, mayın 1-də Daşkənddə keçirilən görüşdə 3 ölkənin iqtisadiyyat və energetika nazirləri Mərkəzi Asiyanın Günəş və külək elektrik stansiyalarından alınan “təmiz” elektrik enerjisinin körpü rolunu oynayacaq Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini müzakirə ediblər. Müzakirələrin yekununda “Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Əməkdaşlıq Memorandumu”na imza atıb.

Azərbaycan, Qazaxıstan və Özbəkistanın “yaşıl enerji” gücü və potensialı dəhlizin rentabelliyi üçün kifayət edirmi?

Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə proqnozları kifayət qədər ümidvericidir. Xəzərdə və azad edilmiş ərazilərdə böyük potensiallar var. Təkcə Xəzər dənizində külək sayəsində enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Azərbaycan hökuməti “yaşıl” iqtisadiyyatın inkişafına tam sadiqdir və “yaşıl hidrogen”i gələcəyinin əsas hissəsi kimi görür. Ölkə artıq onu qlobal təmiz enerji bazarında mühüm oyunçuya çevirə biləcək iddialı “yaşıl hidrogen” istehsalı və ixracı layihələrini həyata keçirmək üçün addımlar atır. Uran hasilatında lider olan Qazaxıstanda da Günəş və külək stansiyaları üçün zəngin resurslar var ki, hazırda bu sahədə infrastrukturlar yaradılır. Özbəkistanın da geniş çöllərində Günəş enerjisi üçün resurslar xeyli böyükdür.Azərbaycan bərpa olunan enerji mənbələrininölkənin enerji balansındakı payını 2026-cı ilədək 24 faizə, 2028-ci ilə qədər isə 30 faizə çatdırmağı planlaşdırır.



## Azərbaycan, Qazaxıstan və Özbəkistan “yaşıl enerji” dəhlizinə dair saziş imzalayacaq

Qazaxıstan isə 2025-ci ildə ümumi elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını 6 faizə, 2030-cu ilə qədər 10 faizə çatdırmağı planlaşdırır, 2050-ci ilə qədər isə bərpa olunan enerjinin ümumi enerji istehlakının azı yarısını təşkil etməlidir. Qazaxıstanın külək potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, Günəş enerjisi isə 1 trilyon kilovat/saatdır. Özbəkistan hökuməti isə 2030-cu ilə qədər ümumi elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını 25 faizə, çatdırmağı hədəfləyir. Ölkədə külək enerjisinin potensialı 520 QVt, Günəş enerjisinin potensialı isə 2 trilyon 058 milyard kVt təşkil edir.

Beləliklə, Qazaxıstan, Özbəkistan və Azərbaycanın yeni ittifaqı olan “yaşıl tranzit qovşağı” TDT-nin böyük bir coğrafiyada müasir enerji obrazını formalaşmaqdadır. 3 qardaş ölkənin bərpa olunan enerji potensialları bölgədə yeni “yaşıl” enerji dəhlizinin yaradılmasına zəmin yaradır və bu ölkələr Avropanı təmiz, etibarlı və sərfəli enerji ilə təmin edərək qitənin enerji keçidinin lokomotivinə çevrilə bilər. Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əldə olunmuş razılaşmalar dünya birliyində bu türk dövlətlərinin mövqeyinin möhkəmlənməsi, Avropa ilə əlaqələrin gücləndirilməsi üçün dərin təminat deməkdir.

**ELBRUS**

# Sui-qəsdə məruz qalanlar...

**Teatrda güllələnən, qanqrena olan, soyuqda bəxti gətirən ABŞ prezidentləri....**

Ağ Evə rəhbərlik uğrundakı mübarizədə namizəd olan Donald Trampa açılan atəş ABŞ-nin daxili siyasətindəki “qanlı ənənən”in aradan qalxmadığını göstərir. Belə ki, baş verənlər ABŞ tarixində nə ilk, belə görünür ki, nə də son olmayacaq. 300 illik tarixi boyu bir neçə rəhbərini məhz qanlı terrora qurban vermiş ABŞ-ın “siyasi plasdarm”ı hələ də bu təhlükədən əziyyət çəkir. Tarixə demişkən, ABŞ-də Endryu Cekson, Avraam Linkoln, Ceyms Abram Qarfild, Uilyam MakKinli, Teodor Ruzvelt, Franklin Ruzvelt, Con Kennedi, Cerald Ford, Ronald Reyqan, Corc Buş (ata), Corc Buş (oğul), Barak Obama ayrı-ayrı dövrlərdə belə hücumların hədəfinə çevriliblər. Sadalanan dövlət başçılarının 4-ü isə bu terrorun qurbanına çevrilib - Avraam Linkoln (1865), Ceyms Qarfild (1881), Uilyam MakKinli (1901) və Con Kennedi (1963) prezident kürsüsündə həyatını itiriblər.

## Ən gənci də sui-qəsdin qurbanı oldu...

ABŞ tarixinə vətəndaş müharibəsinin bitiricisi kimi düşmüş Avraam Linkoln isə 1865-ci il aprelin 14-də həyat yoldaşı Meri Todd Linkolnla birlikdə Vaşinqtondakı Ford Teatrında “Amerikalı qohumumuz” komediyasının xüsusi tamaşasında iştirak edərkən Con Uilks But tərəfindən güllələnərək öldürülən ilk prezident oldu. Başının arxasından güllə yarası alan Linkoln müalicə üçün teatrın qarşısındakı evə aparılsa da, səhərisi gün vəfat etdi. Onun ölüm səbəbi isə maraqlı idi - ilk “qurban prezident” qaradərililərin hüquqlarını dəstəklədiyi üçün terrora tuş gəlmişdi. 1863-cü ildə Linkoln vətəndaş müharibəsini bitirmək üçün Linkoln Konfederasiya daxilində qullara azadlıq verən manifesti imzalamışdı.

1881-ci ildə terror gülləsinə tuş gələn Ceyms Qarfild isə ABŞ tarixinə sui-qəsddə öldürülən ikinci prezident kimi düşdü. Qarfild 1881-ci il iyulun 2-də qatara minmək üçün Vaşinqtonda dəmiryol stansiyasında gözlədiyi vaxt Çarlz Gito tərəfindən güllələndi. Ölümcül şəkildə yaralanan prezident Ağ Evdə bir neçə həftə xəstə yatsa da, onu xilas etmək mümkün olmadı. Sentyabr ayında Nyu-Cersi sahilinə aparıldıqdan sonra vəfat etdi - xatırladaq ki, onun prezidentliyi cəmisi altı ay sürmüşdü. Qatil Gito isə günahkar bilinərək 1882-ci ilin iyununda edam edildi.

ABŞ prezidenti vəzifəsinə seçilmiş sonuncu vətəndaş müharibəsi iştirakçısı Vilyam Makkinli isə 1901-ci il sentyabrın 5-də ümumamerika sərgisində iştirak edərkən Polşa əsilli amerikalı anarxist Leon Frank Çolqoş prezident Makkinliyə tapançadan 2 dəfə atəş açaraq onu ağır yaraladı. Aparılan müalicə nəticəsiz qaldı və o sentyabrın 14-də daxili orqanların qanqrenasından vəfat etdi. Qeyd edək ki, sui-qəsdə qurban gedən zaman Makkinli 6 ay idi ki, ikinci müddətə prezident seçilmişdi.

Makkinlini qətlə yetirən 28 yaşlı işsiz Detroit sakini Leon F. Çolqoş güllə açdığını etiraf etdi. Çolqoş məhkəmədə günahkar bilindi və 1901-ci ildə oktyabrın 29-da elektrik stulunda edam edildi.

ABŞ-nin ən gənc prezidenti olmuş Con Kennedi də sui-qəsdə qurban gedib - 1963-cü ilin noyabrında xanım Jaklin Kennedi ilə Dallasda olarkən tüfənglə silahlanmış və gizlənən şəxs tərəfindən öldürüldü. Prezidentə atəş kortej Dallas şəhərinin mərkəzindəki Dili Plazadan keçərkən açılmışdı. Kennedi təcili olaraq Parkland xəstəxanasına çatdırılsa da, qısa müddətdən sonra dünyasını dəyişmişdi. Onu “Air Force One” təyyarəsinin konfrans zalında and içən vitse-prezident Lindon B. Cohnson əvəz etdi -Conson təyyarədə and içən yeganə prezidentdir. Sui-qəsddən bir neçə saat sonra polis qatil Li Harvi Osvaldı həbs etdi. İki gün sonra Osvald polis qərargahından dairə həbsxanasına aparıldığı zaman yolda güllələndi.



## Erməni terrorçu ABŞ prezidentinə qumbara atmışdı...

ABŞ tarixində sui-qəsdə məruz qalsa da, sağ qurtulmağı bacaran prezidentlər də az deyil - 1828-ci ildə ABŞ prezidenti seçilmiş Endryu Cekson 1835-ci ilin 30 yanvarında sui-qəsdə muraz qaldı. Riçard Lourens adlı ruhi xəstə Ceksonun həyatına uğursuz sui-qəsd cəhdi etdi. Lourens bildirirdi ki, “ABŞ hökuməti ona külli miqdarda pul borcludur” çünki o, “III Riçardın nəslindəndir”. 1834-cü ilin sonlarında o, prezident Endryu Ceksonun pulun ödənilməsinə mane olduğu qənaətinə gəldi - əvvəlcə sui-qəsd Konqres qəbiristanlığında Cənubi Karolinadan olan konqresmen Varren Davisin dəfn mərasiminə planlaşdırılsa da, baş tutmadı. Yalnız vida zalını tərk edən zaman Lourens atəş açmağa macal tapdı - həmin gün güclü qar fırtınası olduğu üçün isə tapançadakı barıt rütubətli idi. Beləliklə, ABŞ dövlət başçısının qanının arasına soyuq hava girdi...

11 aprel 1835-ci ildə hakim Frensis Kayın sədrlik etdiyi məhkəmə Riçard Lourensi ruhi xəstə elan etdi və onu ruhi xəstəxanada ömürlük həbsə məhkum etdi. 1855-ci ildə təbii səbəblərdən öldü.

Mənşəcə holland və ayaqları iflic olan Franklin Delone Ruzveltə isə 1933-cü ilin fevralında sui-qəsd edildi. Amma o, atışmadan salamat çıxa bilmişdi - silahlı qəsddə Çikaqo meri Anton Cermak öldürülmüşdü. Cüzeppe Zangara atışmada təqsirli bilinərək ölüm cəzasına məhkum edildi - Ruzvelt isə 4-cü hakimiyyət müddətinin başlamasından qısa müddət sonra beyninə qan sızmasından vəfat etdi.

33-cü preztident də öz sələfinin taleyinə bənzər hadisəyə tuş gəldi - Harri Truman, 1950-ci ilin noyabrında Ağ Evin qarşısındakı “Bleyr House”-da qaldığı zaman silahlı basqına məruz qaldı. Truman xəsarət almasa da, Ağ Evin bir polisi və hücum edənlərdən biri atışma zamanı öldürüldü. Günahkar Oskar Kallazo isə həbs olundu və ölüm cəzasına məhkum edildi. 1952-ci ildə Truman onun cəzasını ömürlük həbslə əvəz etdi. Kallazo 1979-cu ildə prezident Cimmi Karter tərəfindən həbsdən azad olundu.



38-ci prezident Cerald Forda dövlət başçısı olduğu dövrdə iki sui-qəsd edilsə də, heç birində xəsarət almadı. 40-cı prezident Ronald Reyqan isə Con Hinkli adlı şəxs tərəfindən vurulsa da, həyatda qalmışdı. Hadisə zamanı nəticədə qismən iflic olan mətbuat katibi Ceyms Bredi də daxil olmaqla, daha üç nəfər güllə yarası almışdı. 43-cü prezident Corc Buş isə 2005-ci ildə Gürcüstan prezidenti Mixail Saakaşvili ilə Tbilisidə mitinqdə iştirak edərkən ona əl qumbarası atılmışdı. Qumbara partlamamış, xəsarət alan olmamışdı. Hadisədə erməni Vladimir Arutyunyan təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilmişdi.

## Namizədlər də hədəfə tuş gəlir...

Qeyd edək ki, prezidentlərlə yanaşı ABŞ-da prezidentliyə namizədlər də terrora tuş gəlib. Teodor Ruzvelt 1912-ci ildə Ağ Evə yenidən qayıtmaq üçün kampaniya apararkən Milvoki şəhərində ona güllə atılmışdı. Robert Kennedi isə 1968-ci ildə Kaliforniyada keçirilən praymerizdə qələbə nitqindən bir neçə dəqiqə sonra Los-Ancelesdə oteldə öldürülmüşdü. Kennedi bu hadisədən beş il əvvəl öldürülən prezident Con Kennedinin qardaşı idi. Demokratlar Partiyasından prezidentliyə namizəd olmuş Uallas da 1972-ci ildə seçki kampaniyası dövründə Merilend ştatında güllə ilə vurulmuşdu. Hadisə nəticəsində o, beldən aşağı iflic vəziyyətində qaldı.

**P.İSMAYILOV**

# Borrell Macarıstana qarşı...

**Brüssel Budapeştin Aİ sədrliyinə zərbə vurmağa çalışır**

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrel (Jozep Borrel) Avropa diplomatlarının avqust ayında Budapeştdə keçirilməsi nəzərdə tutulan görüşünə mane olmaq istəyir. Bu barədə “Politico” qəzeti üç diplomata istinadən məlumat yayıb. Məlumatda qeyd olunub ki, hazırda quruma sədrlik edən Macarıstan avqustun 28-29-da Budapeştdə Aİ-nin xarici işlər nazirlərinin görüşünü təyin edib. Diplomatlardan biri görüşlə bağlı fikirlərini bölüşüb: “Eyni günlərdə ali nümayəndə tərəfindən təşkil edilən Aİ Xarici Əlaqələr Şurasının rəsmi iclası olarsa, nazirlər Budapeştə gedə bilməyəcəklər”. Nəşrin digər həmsöhbəti isə deyib ki, bu yolla Aİ Budapeştə siqnal göndərir ki, Macarıstan bütün təşkilat adından Ukrayna haqqında Rusiya ilə danışa bilməz. Qəzetin yazdığına görə, paralel görüşün keçirilməsi Almaniya və Fransa da daxil olmaqla bir neçə Aİ ölkəsi tərəfindən müzakirə edilir. Planın çərşənbə günü təqdim ediləcəyi gözlənilir.

**Aİ Orbanın vasitəçiliyinə qarşıdır**

Brüsselin Macarıstana qarşı belə addımı Baş nazir Viktor Orbanın Ukraynada sülhün əldə olunması üçün Moskva və Pekinə səfər etməsi ilə bağlıdır. Xatırladaq ki, Macarıstan iyulun 1-dən Avropa İttifaqına sədrliyə başlayıb. Bu ölkənin Avropa İttifaqı rəhbərliyi ilə bir sıra məsələlər, o cümlədən Rusiya ilə Ukrayna arasındakı münaqişə, eləcə də iqtisadi və miqrasiya məsələləri üzrə ciddi fikir ayrılıqları var. Budapeştlə Brüssel arasında formalaşan mürəkkəb münasibətlər hətta Macarıstanın sədrliyi dövründə “Avropanı yenidən möhtəşəm edək!” şüarının seçilməsində də özünü göstərib. Baş nazir Viktor Orban Avropa İttifaqına sədrliyi dövründə Macarıstanın prioritetlərini də açıqlayıb. O bildirib ki, sədrliklə bağlı 7 maddədən ibarət proqram qəbul olunub: “Proqramın əsas müddəası Ukraynada müharibənin dayandırılmasından ibarətdir. Çünki hazırda orada baş verənlər ittifaq daxilində nəzərdə tutduğumuz prioritetlərin həyata keçirilməsinə maneə yaradır”. Təsadüfi deyil ki, Orban Aİ-yə sədrliyinin ikinci günü - iyulun 2-də Kiyevə səfər edərək Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Viktor Orban Volodimir Zelenskiyə sülh danışıqları öncəsi atəşkəs variantını nəzərdən keçirməyi təklif edib. Lakin rəsmi Kiyev bu təklifi qəbul etməyib. Ardınca, V.Orban iyulun 5-də Moskvaya səfər edərək Vladimir Putinlə görüşüb. Rusiya Prezidenti ilə görüşündə də əsas müzakirə mövzusu Ukrayna müharibəsinin sülh yolu ilə həll edilməsi olub. Orban Kiyev və Moskva səfərində apardığı danışıqlardan sonra tərəflərin mövqelərinin biri-birindən çox uzaq olduğu qənaətinə gəlib. Buna görə də, Avropa İttifaqının sədri olan Macarıstanın Baş naziri hesab edir ki, münaqişənin bitməsi üçün çoxlu işlər görmək lazımdır. Bu səbəbdən də, o, iyulun 8-də Pekinə səfər edərək Çin Xalq Respublikasının lideri Si Cinpinlə görüşüb. Orban Çini Ukrayna münaqişəsinin nizamlanması üçün əsas ölkə adlandırıb.




**Sülh missiyasına qarşı cəza?**

Amma qəribədir ki, Aİ-nin bəzi ölkələri V.Orbanın sülh missiyasını dəstəkləmək əvəzinə, onu ciddi tənqid edib. Avropa İttifaqının rəhbər strukturları Orbanın Moskvaya səfərinə görə Macarıstanı kəskin tənqid atəşinə tutub, Almaniya isə Budapeştdən Aİ-nin sədri vəzifəsindən istefa verməsini tələb edib. Buna cavab olaraq, Macarıstanın xarici işlər naziri Peter Siyartonun almaniyalı həmkarı Annalena Berbok ilə bazar ertəsi Budapeştdə keçirilməsi planlaşdırılan görüşünü ləğv edib. Nazir Siyarto avropalı siyasətçilərə Baş nazir Viktor Orbanın sülhməramlı missiyasını “təhlükəsizlik kəmərlərini bağlayıb diqqətlə izləməyi” tövsiyə edib. “Ukraynaya silah tədarük edən, oraya qoşun göndərmək xəyalı ilə yaşayan və nüvə silahından istifadə edilməsi haqqında söhbət aparan çoxsaylı “müharibə tərəfdarı olan siyasətçilər” Avropa İttifaqındakı böhranı daha da ağırlaşdırırlar”, - deyə Peter Siyarto qeyd edib.

Belə bir şəraitdə Aİ-nin bəzi dövlətlərinin Macarıstanı sədrlikdən uzaqlaşdırmaq cəhdləri sadəcə, Orbanın Moskvaya səfəri ilə bağlı deyil. Əsas səbəblərdən biri Orbanın Avropa İttifaqının rəhbər strukturlarının qitədə yaranmış ciddi problemlərə görə dəfələrlə tənqid etməsidir. Moskva səfəri isə Orbanı cəzalandırmaq üçün bir bəhanədir. Borrelin XİN başçılarının Budapeşt görüşünü boykot etmək “layihəsi” də buradan qaynaqlanır. Bu “layihə”nin taleyi isə tezliklə bəlli olacaq. Əslində, bütün bunlar Aİ-də ciddi böhranın olduğunu göstərir. Brüsselin müstəqil dövlətlərin suverenliyinə qarşı təhdidləri bu platformaya böyük zərb vura bilər.

**Nardar BAYRAMLI**

# İctimai və dövlət maraqları...

## Əlverişli şərait, etibarlı zəmin yaradılıb

Hər bir ölkədə hökm sürən sabitlik məhz həmin ölkədəki ictima-siyasi vəziyyətin göstəricisidir. Bunun üçün uğurlu xarici siyasət kursuna paralel olaraq daxili siyasi vəziyyət də mütləq şəkildə sabit və davamlı inkişafı hədəfləyən xəttə əsaslanmalıdır. Azərbaycanın bu sahədə təcrübəsi müsbət və mütərəqqi nümunə kimi diqqəti cəlb edir. Əminliklə söyləmək olar ki, ölkəmizin sabitlik modeli bir çox dövlətlərin və xalqların görmək istədiyi mənzərələrdən sayılır. Təbii ki, Azərbaycanda hökm sürən bu sabitliyin səbəbi ölkəmizdə ictimai və dövlət maraqlarının qorunması, xalq - dövlət formulunun bütün parametrlər üzrə yüksək temp qazanmasıdır.

Bəllidir ki, Azərbaycanda ictimai və dövlət maraqlarının qorunması üçün əlverişli şərait-etibarlı zəmin yaradılıb. Bu sahədə lazım olan bütün tədbirlər görülür. Dövlətin yürütdüyü siyasətin ən vacib qollarından biri məhz vətəndaşların təhlükəsizliyinin təmin olunması, rifahının yaxşılaşdırılmasıdır. Bütün bunların fonunda dövlətlə xalq arasında mühüm, bir o qədər də qürur hissi bəxş edən vəhdətin şahidi oluruq.

**Dövlət və cəmiyyət maraqlarının qarşılıqlı təmini...**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan politoloq Turan Rzayev bildirib ki, bu gün dünyanın aparıcı ölkələrinin hesabatlarında öz əksini tapan bir həqiqət var. Yerli və xarici ekspertlər hesab edirlər ki, bütün bəşəri dəyərləri böyük məsuliyyət və ciddi yanaşma ilə qoruyan, təbliğ edən Azərbaycanda dövlət maraqları, ictimai və milli maraqların təmin olunması prioritetdir: "Birmənalı olaraq qeyd etməliyik ki, milli maraq Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur. Son 30 ildə müasir Azərbaycan sosiumu intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət kimi xarakterizə olunur. Bu da o deməkdir ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, eyni zamanda, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə ələqələrində nümayiş etdirməyi bacaran, formalaşmış bir cəmiyyətdir. Prezident İlham Əliyev də dəfələrlə bildirib ki, bizim siyasətimizin təməlində dövlət maraqları, xalqla iqtidar arasındakı birlik dayanır. Əslində



bu, dövlət və cəmiyyət maraqlarının qarşılıqlı təmini ilə bağlı ən məntiqi izahdır".

**"Xalq dövlət üçün deyil, dövlət xalq üçün olmalıdır"**

Politoloq qeyd edib ki, ölkəmizdə dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti ulu öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideyası çərçivəsində təkmilləşməkdədir: "Mütəxəssislərin fikrincə, Heydər Əliyevin irəli sürdüyü bu konsept dövlət, cəmiyyət maraqları və fərdin mənəvi maraqlarının vəhdəti kimi bütün azərbaycanlıları birləşdirən zəruri, güclü bir zəmin rolunu oynadı. Elə bu kontekstdə inkişaf etməkdə olan müasir hüquqi, milli-dövlət quruculuğu siyasətində "xalq dövlət üçün deyil, dövlət xalq üçün olmalıdır" prinsipi həyata keçirilir. Hətta yüzilliklərdir üzərində dayanılan fikir ondan ibarətdir ki, dövlətin və dövlətçiliyin, onun suverenliyinin möhkəmlənməsi üçün milli dövlət maraqları ilə ümummilli maraqlar hər zaman üst-üstə düşməlidir. Məhz bu baxımdan Azərbaycanda mövcud dövlətçilik modelinin ən uğurlu istiqamətlərindən biri kimi dövlətlərlə bütün sahələrdə münasibətdə öz milli maraqlarından çıxış etməsi olduğunu deyə bilərik".

**Azərbaycan dünyaya örnəkdir...**

T.Rzayevin sözlərinə görə, Azərbaycan ictimai və dövlət maraqlarının müdafiəsinin əsl nümunəsi kimi ölkəmiz dünya dövlətləri üçün örnək sayıla bilər: "Çünki, ictimai və dövlət maraqlarının müdafiəsinə nəzər salsaq görərik ki, ölkəmizdə xalq, cəmiyyət, vətəndaş tərəfindən bu maraqların müdafiəsi yüksək səviyyədədir. Xalqımızın hər zaman öz dövlətinə inandığının, dövlət maraqlarını qoruduğunun hər an şahidi olmuşuq və 44 günlük Vətən müharibəsi də bunu təsdiq etdi. Bütün dünya gördü ki, Azərbaycanda xalq və dövlət arasında yüksək inam və bağlılıq mövcuddur. Ali Baş Komandanımızın bir əmri ilə səfərbər olan müzəffər ordumuzun arxasında dövlətimizlə yanaşı xalqımızın da dayandığının bütün dünya şahidi oldu. Hər kəs gördü ki, Azərbaycanda xalqla, cəmiyyətlə dövlət arasında qırılmaz tellər, bağlar mövcuddur və bu münasibətləri sarsıtmaq mümkün deyil".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

# "Aİ-95" ucuzlaşdı, avtomobil parkı tədricən "Aİ-92"-dən imtina edəcək

Məlum olduğu kimi iyulun 15-dən etibarən "Avro-5" keyfiyyət göstəricilərinə uyğun daxili istehsal edilən "Aİ-95" markalı avtomobil benzininin 1 litrinin qiyməti 0,40 manat ucuzlaşaraq 1,60 manata endirilib. Yeni qiymət tarifinin tətbiqində əsas məqsəd "Avro-5" standartlarına keçidin təmin edilməsi və buna uyğun olaraq maşın parkının da bu prosesə hazırlanmasıdır. Bu baxımdan "Aİ-95"-in ucuzlaşması təşviqedici rol oynamaqla nəzərdə tutulan hədəflərə çatmaqda ilk addım kimi səmərəverici rol oynaya bilər, eləcə də növbəti mərhələlərdə aşağı oktanlı yanacaq sərfiyyatından kənarlaşmaların minimallaşdırılmasına yol açmaqla avtomobil bazarında müsbət vərdiş yaradacaq.

"Aİ-95" oktanlı yanacağın bundan sonra birbaşa ölkəmizin yerli sənaye müəssisəsinində istehsalının təmin olunması növbəti mərhələdə bu yanacağın istehsal həcminin də yüksəlməsinə və qiymətlərin hətta bir qədər də ucuzlaşmasına səbəb olacağı gözlənilləndir. Belə ki, Azərbaycanda "Aİ-95" və daha yüksək oktanlı premium yanacaq emalının əsas güc bloku olan Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ) artıq tam gücü ilə bu yanacağın istehsal və emalını həyata keçirmək iqtidarındadır. Zavod bir neçə il əvvəl təmirə dayandığından həmin yanacaq növü xarici ölkələrdən idxal olunurdu. 10 il idi ki, həmin marka yanacağa olan tələbatı 100 faiz idxal hesabına təmin edirildi. Rusiya, Bolqarıstan, Rumıniya və Türkmənistan ildə təxminən 150 min ton "Aİ-95" markalı benzin satırdı. Yolnəqliyyat, daşınma, logistika və sair xərclər, eləcə də dünya bazarında həmin növ benzinin qiymət dəyişmələri ölkəmizdə gətirilən yanacağın bahalaşmasına səbəb olurdu. Ötən illərdə bir neçə dəfə qiymət artımları sayəsində 2 manata çatmışdı.

NEZ-də əsaslı şəkildə yenidən qurma və istehsal gücünün artırılması, sənayenin yüksək keyfiyyətli yanacaqla təmin edilməsi məqsədilə 2014-cü ildən başlanmış əsaslı təmir işləri isə beynəlxalq mütəxəssislərin apardığı qiymətləndirmələrdən sonra





əlavə olaraq tamamilə modernizasiyaya açıldı və proses daha da uzandı. NEZ-in keçən əsrin 70-80-ci illərində inşa olunmuş bir neçə əsas qurğunun, o cümlədən neftin ilkin emalı qurğusunun istismar müddətinin sona yaxınlaşması nəzərə alınaraq həmin qurğuların tamamilə yeniləri ilə əvəz edilməsi tövsiyə olundu.

Beləliklə, ötən dövrdə NEZ-də yenidənqurma layihəsi çərçivəsində əhəmiyyətli texnoloji işlər görüldü, istehsal gücünün artırılmasını təmin edəcək dayanıqlı infrastrukturlar quruldu, yeni istehsal qurğuları inşa edildi və zavoddakı qurğular yeni qurğularla əvəz edildi. Əsaslı təmir və yenidən qurma işlərinin 2022-ci ilə başa çatması və NEZ-də "Avro-5" tələblərinə cavab verən yanacağın istehsalına başlanılması nəzərdə tutulsa da, COVID-19 pandemiyası layihənin bir neçə il gecikməsinə səbəb oldu.

Artıq bir neçə aydır ki, "Aİ-95" markalı avtomobil benzini istehsalı tamamilə NEZ-də emal edilir ki, bu da yanacağın ucuzlaşmasına əlverişli zəmin yaradır. Beləliklə, respublikamıza xaricdən idxal edilən "Aİ-95" premium markalı benzinin yerli istehsal hesabına təmin olunması yanacaq bazarında uculaşmalara gətirib çıxarır və bu prosesin növbəti mərhələdə də baş verəcəyi istisna deyil.

"Aİ-95" premium markalı və "Aİ-98" super markalı benzindən sürücülərin az qismi istifadə etsə də, 40 qəpik ucuzlaşmadan sonra bu markalı yanacağa da keçid kifayət qədər artacaq. Əvvələ, "Aİ-95" markalı benzinin qiymətinin ucuzlaşmasından sonra "Aİ-92" markalı benzinlə aradakı qiyməti əmsalı azalacaq ki, bu fərq nəticəsində avtomobil sahiblərinin bir qismi birinci oktanlı yanacağa keçməyə çalışaq. "Aİ-95" markalı benzinin istifadə olunmasına maraq və tələbat artdıqca, müəyyən müddətdən sonra "Aİ-92" markasının sıradan çıxması baş verəcək, Bu stimul sayəsində ölkənin avtomobil parkının tədricən daha keyfiyyətli və ekoloji təmiz yanacağa keçidi sürətlənəcək.

Məlumdur ki, ətraf mühitin çirklənməsinin böyük bir hissəsini avtomobillərdən müasir standartlara uyğun olmayan yanacaqlardan istifadə nəticəsində ayrılan zəhərli qazlar təşkil edir. Havanın çirklənməsi ilə bağlı dünya ölkələrində əsas hədəf elektromobillərə keçidi sürətləndirməkdir. Əksər ölkələrdə artıq "Aİ-92" markalı benzin istehsal olunmur və satılmır, dizelin daha böyük ekoloji zərəri nəzərə alınaraq istehlakının azaldılması üçün tədbirlər görülür. Bu məqsədlə bir çox ölkələrdə dizelin qiyməti elə tənzimlənir ki, benzinin qiymətindən baha olsun. Ölkəmizdə benzin mühərrikli avtomobillərin idxalı azalsa da, dizel mühərrikli avtomobillərin sayı artır. Dizel mühərrikli avtomobillərin havanı daha çox çirkləndirdiyini nəzərə alaraq, ölkələr onların istifadəsinin azaldılmasına doğru müxtəlif vasitələrdən istifadə edir ki, nəticədə nəqliyyat sektorunda keyfiyyətli yanacağa doğru motivasiya da artır. Bu baxımdan "Avro-5"standartlara uyğun "Aİ-95" və "Aİ-98"-ə keçidi stimullaşdıran tarif siyasəti optimallaşmada xüsusi əhəmiyyət kəsb edəcək.

Beləliklə, ölkəmizin yanacaq sektorunun qarşıya qoyulmuş əsas hədəfə - "Avro-5" standartlarına keçidinin tam bərqərar olunması da öz həllini tapacaq və nəqliyyat sektorunun təmiz ekoloji mühit standartlarına keçidi də yekunlaşmış olacaq.

*ELBRUS*

# Artıq sancmağa iynəsi də yoxdur

## "Kirpi" jurnalının çapından 72 il ötür...

Satirik janr daima aktuallıq daşıyıb. Çünki satira xüsusilə, mətbu satira cəmiyyətin güzgüsü olmaq kimi məsul bir vəzifəni çiyinlərində daşıyır. Bəllidir ki, Azərbaycanda satirik mətbuatın əsasını bu janrın ən nəhəng nümayəndəsi - "Molla Nəsrəddin" jurnalı qoyub. "Molla Nəsrəddin"dən yol alan satirik mətbuatımız sonralar da öz varlığını qoruyub saxlaya bildi, hətta inkişaf etdirdi. Məsələn, "Kirpi", "Mozalan" satirik jurnalları bunun sübutudur.

İyulun 15-də "Kirpi" jurnalının nəşrə başlamasının 72 il tamam oldu. 1952-ci ildə çap olunmağa başlayan "Kirpi" "Molla Nəsrəddin" ənənələrinə sona qədər sadiq qalıb. Kommunist ideologiyasının ən kəskin zamanlarında jurnal satirik məzmunu, karikaturaları və felyetonları ilə o dövrdə mövcud olmuş nöqsanları məsxərə atəşinə məruz qoyurdu.

## Karikaturanın inkişafına böyük təkan...

"Kirpi" dövrün, zamanın tələbi idi. Jurnalın nəşrə başlaması karikatura janrının inkişafında da müstəsna rol oynadı və bu sahədə yeni ənənələrin yaranmasına təkan verdi. Əsasən, sovet ideologiyasına xidmət etməsinə baxmayaraq, "Kirpi" jurnalı müxtəlif nəsillərə mənsub olan peşəkar karikaturaçı rəssamları bir araya gətirə bildi.

Məlumdur ki, bu gün dünya karikaturası tamamilə yeni qiyafəyə bürünərək özünü media kimi və ideoloji formada göstərir. Ölkəmizdə isə karikaturanın tarixi və yeni bir janr kimi formalaşması "Molla Nəsrəddin" jurnalının adı ilə bağlı olsa da, bunun inkişafına "Kirpi" jurnalı təkan vermişdi.



"Kirpi" jurnalı dahi Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin və "Molla Nəsrəddin" jurnalının ənənələrinə sadiq qalmağı qarşısına məqsəd qoymuşdu. Satirik jurnalın əsas iş prinsipi cəmiyyətdəki nöqsanları üzə çıxarmaq, haqqın, ədalətin öz yerini tapması idi. Mətbuatda Kommunist Partiyasının ideologiyası, siyasəti təbliğ olunduğu bir dövrdə öz kəskin yazıları, felyetonları, karikaturaları ilə tez bir zamanda sevilməyə başladı. Dərgi sovet hakimiyyəti illərində öz cürətli çıxışları ilə cəmiyyətdəki nöqsan və problemləri əsasən karikaturalar vasitəsilə əks etdirdi. Jurnalın oxunaqlı olması bu sahəyə peşəkar rəssamların axını ilə müşayiət olundu. Burada

## 3 dəfə məhkəməyə verilmişdi...

Əzim Əzimzadə məktəbini davam etdirən Nəcəfqulu İsmayılov, Tahir Salahov, Oqtay Sadıqzadə, Güllü Mustafayeva, Həsən Əliyev, Ziya Kərimbəyli, Sadıq Şərifzadə, Ələkbər Zeynalov, Arif Ələsgərov, Adil Quliyev, Kazım Kazımzadə kimi görkəmli rəssam və karikatura ustalarımız yetişdi. Bir sözlə, "Kirpi" jurnalının çap olunması karikatura janrının inkişafında müstəsna rol oynadı və bu sahədə yeni ənənələrin yaranmasına təkan oldu. "Kirpi" jurnalı cəmi 3 dəfə məhkəməyə verilmişdi. Biri sovet vaxtı, ikisi də müstəqillik dövründə. Ancaq hər 3 məhkəmədə dərginin xeyrinə qərar çıxarıldı.

## Nə üçün çox sevilirdi?

Əslində "Kirpi"ni sevdirən çox şeylər var idi. "Kirpi" həqiqəti yazan yeganə jurnal idi. Jurnalın səhifəsində xalqı düşündürən, narahat edən mövcud çatışmazlıqlar dərc edilirdi, nöqsanlar açıq-aşkar göstərilirdi.

"Kirpi"nin bu qədər səs-küy yaratmasının bir səbəbi də o idi ki, jurnal fəaliyyətə başladığı gündən onun rəhbərliyində və yaradıcı kollektivində ictimaiyyət tərəfindən tanınan, nüfuzlu peşə və sənət sahibləri çalışırdılar. Bu da "Kirpi"nin ilk nömrələrindən etibarən, nüfuz, hörmət və şöhrət tapmasında əsas amil idi. Prinsipiallığı və işgüzarlığı ilə tanınan Əvəz Sadıq, ondan sonrakı baş redaktorlar - ömrünün 20 ildən çoxunu "Molla Nəsrəddin" jurnalında çalışan, qocaman jurnalist Qulam Məmmədli, satirik yazıçı Seyfəddin Dağlı, yazıçı Salam Qədirzadə və Şamil Xurşud jurnalın oxunaqlı və qərəzsiz mövqe tutmasına çalışıblar və peşəkar satiriklər dəstəsi yetişdirilməsində böyük əmək sərf ediblər.

Jurnal 450 min tirajla çıxırdı və 300 mini abunə yazılırdı. Ancaq "Kirpi" jurnalı 1952-ci ildən 1986-cı ilə kimi çoxminli oxucuların, peşə və sənət adamlarının ən çox oxuduğu və sevdiyi jurnal idi. 1985-ci ildən, daha dəqiq desək, Mixail Qorbaçovun "yenidənqurma"sı, digər ictimai-siyasi, mədəni və təsərrüfat sahələrində olduğu kimi, ədəbi tənqidə, o cümlədən də "Kirpi" jurnalına mənfi təsir göstərdi. Belə ki, həmin dövrlərdən başlayaraq, jurnal ayda iki dəfə yox, bir də-

## "Kirpi" necə yoxa çıxdı?

fə dərc olunmağa, ictimai satiranın kəsəri azalmağa başladı. Peşəkar satiriklər və güclü qələm sahibləri redaksiyadan uzaqlaşdırıldı. Nəhayət, ayda iki dəfə və ən azı 350 min tirajla dərc edilən jurnalın əvvəlki şöhrəti büsbütün itdi. İldə 3-4 nömrəsi cüzi tirajla buraxıldı.

Satirik jurnalın son dayağı isə Polad Qasımov idi. O, 1983-cü ildən "Kirpi" satira-yumor jurnalında çalışırdı. 1995-ci ildən isə jurnalın baş redaktoru idi. 2017-ci ilin əvvəlindən - P.Qasımovun vəfatından sonra jurnalın nəşri dayandı. Artıq onun nə izi, nə tozu, nə də sancmağa iynəsi var...

*Yeganə BAYRAMOVA*

# HƏM "ŞUMER", HƏM ETRUSK TÜRK İDİ,
## HƏR İKİSİ TÜRKCƏ DANIŞIR, TÜRKCƏ YAZIRDI

*İyunun 18-də ABŞ-da həmyerlimiz Tariyel Azərtürkün "Genesis of the Sumerian and Etruscan Turks and Their Languages. Based on Cuneiform and Etruskan Skript" (Şumer və Etrusk Türkünün mənşəyi və onların dili. Mixi və Etrusk yazıları əsasında) adlı böyük həcmli (873 səh.) kitabı çapdan çıxıb.*

*Bu böyük uğuru münasibətilə müəllifə qəzetimiz adından təbrik göndərməklə yanaşı, ondan kitabın məzmunu barədə oxucularımıza məlumat verməsini də xahiş etdik...*







Bu, Azərbaycan türk dili tarixinin dərinliyinə, genişliyinə baş vurmaq üçün çox riskli cəhddir, fəqət ilk cəhd deyildir. Gil lövhələri oxuyub orada türklük axtarmaq yönündə ilk cəhd müəllif tərəfindən hələ 1997-ci ildə doğma Azərbaycan dilindəki 472 səhifəlik "Əcdad" (Sietl) kitabı ilə edilmişdi. O kitab respublikada böyük rezonans doğurdu. Türk dilinin şumer deyilən dövrlərdə mövcud olduğu faktını şüurlara tam yeritməsə də, kitab Azərbaycan ictimai şüurunun oyanmasında böyük rol oynadı. Kitabın öz missiyasını tam yerinə yetirə bilməməsi isə maddi məhdudiyyət səbəbindən özüm tərəfindən cəmisi 100 ədəd buraxılmasında idi. Geniş oxucu kütləsi onun yalnız sədasını eşidə bildi.

2012-ci ildən başlayaraq mixi yazılı mətnlərdən yeni tərcümələrimin də daxil edildiyi materialları bu dəfə rus dilində yazmağı qərarlaşdırdım. Və sonda ağır, sanballı, 1300 səhifəlik "Qenezis Törka i Törkskoqo Əzıka. Na Osnove Klinopisi" (Türkün və türk dilinin mənşəyi. Mixi yazılar əsasında) kitabını 3 il ərzində dalbadal Bişkek (2017), Nyu York, Sankt-Peterburq (2018) və Bakıda (2019) nəşr etdirdim.

Kitabın rus dilində olması çox oxucuları narazı salsa da, Azərbaycan tarixinə və dilinə daima irad tutanları, yersiz hücum çəkənləri susdurmaq üçün elə qərar verdim.

Cəmi bir neçə yüz lövhədən olunmuş tərcümələrdən boylanan atalar sözlərindən nümunələr:

"SINNƏ, ABA, ƏSMƏR SİNMƏ, GİR VƏ RƏDNƏN SÜPÜR".

Saçın, saqqalın əsmərkən (qaraykən) qocalığa sınma, girdinsə, nə qəm, gir və rəddinlə (izinlə) onu süpür.

*Xalçaçılıqda:

"ENƏN QILI ÇAL, DİNC İRMƏZ, HALÇIYA U ENƏN ÜCİ HARA ATAR."

- Enən qılı (ipi) kəs, dinc durmaz, u enən ucu xalçaya hara (rəqsvari dalğa) atar, yəni naxışın həndəsi dəqiqliyini pozar.

*Astronomiyada:

"İSSİTMƏZ MARSI İŞŞIQI QATE DÜŞŞÜRSƏ"

Söhbət Marsa yaxınlaşan quyruqlu ulduzdan (kometadan) gedir. Nə qədər od püskürsə də, istisi Marsa təsir edə bilməz. Bunu gil lövhəyə altı min il əvvəl babilli dahi astronomumuz ENLİL İSMƏ qazıyırdı öz rəsədxanasında. O, Aristoteldən 4500 il əvvəl Yerin kürə şəklində olduğunu iddia edirdi:

"U Kİ ALƏM (KAİNAT) İÇTƏ BİR KÜRRƏDİ YER A !"

Əsər bizim altı min il bundan öncə yaşamış ENLİL İSMƏ DAĞAN adlı ulumuzun geniş biliyinin və elm sahəsindəki gərgin əməyinin nəticələrinin toplusudur. Kitabın "ENLİL İSMƏ DAĞAN şair kimi" fəslində onun əməyə, şuma, bahara, məhsula, əkinə, çörəyə, dostluğa həsr olunmuş üç şeiri verilir. Poetik janr bucağından baxdıqda onları həm də qəzəl adlandırmaq olar.

Şairin cavan anasının ölümünə həsr etdiyi azman poemadan bir parçının tərcüməsi yetir ki, ana itgisini ağır yaşayan alim oğulun dərdini minilliklərin arxasından belə anlaya biləsən.

Riyaziyyatçı kimi ENLİL İSMƏNİN rəhbərliyi ilə yaradılmış vurma cədvəli (bu cədvəlin altındakı sözlərdə deyilir: " ... (?-TA) ildə Ulu Enlillə [tərtib edilib]") də olduqca maraqlıdır. Bu cədvəldə 1-dən 11-ə kimi rəqəmlər bir-birinə vurulur. Vurulan rəqəmlər və cavablar var. Cədvəlin tərtibçisi vuran rəqəmləri tapmağı şagirdin öz ixtiyarına buraxır (məs., 5 ara ? = (babbardu) 25). İkinci 5-i uşaq özü tapmalıdır.

Filosof qismində kiçik bir medalyon üzərinə qazdırdığı aforizm bizim açmamızda belə səslənir:

"İgitliyim pat eşiya, Dağan, u gur xanadumu, isarlıyım?

İri ila bedi u, Dağan !"

(İgidliyim (hünərim) bərq vuran (şüalanan) almaz qaşımı, zəngin xanamı (ev) ki, Dağan, onu hədiyyə edim? Nadir, iri ucalığımdır o, Dağan!)

Sonrakı 5-ci fəsil Enlil İsmənin astronomik tədqiqatlarının nəticəsidir. Kitabda həcmcə böyük (83 səh.) bölmə olan bu fəsildə antik alimin səma cisimləri və yerdə apardığı müşahidələr əsasında gəldiyi nəticələr bugünkü elm adamını şoka salmağa qadirdir. Onun bir sıra kəşfləri elmin müasir müddəaları ilə üst-üstə düşür. Məsələn, deyək ki elə ilk şeirindən o, ata-anasına, onların yaşadıqları elə baş çəkmək lazım gəldiyini yazır. Çünki o eldə:

"Elə namdar ark atı seysim elat şamamı.

Ana, ata anım, Enlil, u yerdə ina kayşadı..."

yəni:

Məlum eldə (ona məlum eldə) elatın seysmik durumu xəstəhaldır.

Ana, ataya baş çəkmək lazımdır. Çünki o yerin (ata yurdu) süxurlarında çatlar baş verməkdədir.

Yaxud Ay tutulmasının təsviri:

"Yer, Ay yannıtu Şəməşə - cığrı it damı ana. Libb ışı."

Yer və Ay eyni anda Şəməşə - Günəşə yan aldıqda Səma Ay üçün çığrıya (tələyə) çevrilir. Ona görə Ayın işığı sönür, kəsilir (libb).

Və ya: Onun dövründə Baharın girmə anında iştirak edən Qoç bürcünün o anlarda hərəkətinin onun rəsədxanasından təsviri özünün elmliyi ilə çox təəccüblüdür:

"Erkec gələ ukte bitmez yulda şimala itir,

Ultu muheyyic, küsir ana, Qaqqarun taxtı.

Ultu qaqqarlu. Şeşir, inə inəsüdü matı izə anun..."

"Qoç bürcü trayektoriyası yolunda maneəyə rast gəldikdə şimala itələyir.

Həyəcanlı oldumu, küsür maneədən, qaqqarun taxır (burnundakı parlaq ulduzu Mesartxim görsənir - T.A.). Bu ulduzla şəşir o və ulduzun matı izinə enir".

Bu gün bizim üçün maraqlı və möcüzəvi olan bu cür elmi açıqlamalar Amerika professoru M.Voqelzanq tərəfindən insafsızcasına təhrif edilir, "akkad nitqinin ədəbi dil nümunələri" kimi təqdim olunur:

"Ereşkiqal bərkdən və dərdli ağladı,

Taxtdan döşəməyə yıxıldı.

Sonra özünü düzəldib, yerdən qalxdı,

gözlərindən yaşlar sel kimi axdı.

Onun göz yaşları aşağıya doğru yanaqlarına axdı..."

* Növbəti fəsil atda sulu qabar xəstəliyinin təsviridir. Baytar həkimin xəstə ata necə qulluq göstərməli, hansı bitki mənşəli dərmanlardan istifadə etməli, atın gigiynasına necə diqqət yetirməli olduğunu tam ardıcıllıqla yazır.

* O biri fəsildəki yazı ETE ELİ adlı türk vətənində dağ zirvəsindəki dağuna (vulkan) püskürməsinin təsvirdir. Əsərin ilkin deşifrəçisi bu faciəni "Marduka himn" adlandıraraq, həmkarı Voqelzanq kimi mətni təhrif edir. 25 sətrindən 19-u günümüzə çatmış mətn üç min il bundan qabaqkı faciəvi təbiət hadisəsinin dəqiq elmi təsviridir.

Bu fəsildən çıxan nəticələr bizim yeni bir dilə müraciət etməyimizə səbəb oldu. Bu dil düşüncələrimi çoxdan məşğul edən etrusk dili idi. İtaliyanın şimalında - Florensiya əyalətində zəngin mədəni irsi üzə çıxmış etruskların mənşəyi və dili barədə elmi jurnallarda yazılanların çoxu rəvayət səviyyəsindədir. Heç kəs onların kimliyi, dili haqda səhih məlumat vermir.

Ete Elinin ardınca gedərək özüm üçün aşkar etdim ki, qədim yunan müəlliflərinə söykənən müasir dünya elmi Eteokipr, Eteokrit nəsillərindən söz açırlar, yazırlar ki, onlar mənşəcə yunan deyildilər, onlardan qabaq o torpaqlarda yaşamış etnoslar kimi öz əlifbalarında yazılı nümunələr qoyub gediblər. İndiyə qədər o yazıların hansı dildə olduğu qəti təsdiqini tapmayıb. Bu cür məlumatlar Ete Eli tarixi "obrazını" fərdiləşdirir, zənginləşdirir, dəyərini daha da artırırdı. Bir neçə il o yazıları axtardım, nəhayət, əsası hələ 1683-də qoyulmuş, dünyanın ilk ümumxalq muzeyi kimi fəaliyyətə başlamış İngiltərədəki Oksford Aşmolean muzeyində deşifrəsi ilə birgə saxlanan daşüstü yazıların açmasının yalnız türkcə ola biləcəyinə əminlikdən sonra qədim etruskların ardınca Apennin yarımadasına "səyahət etməli" oldum. Vaxtilə Kiprin qədim Amathus xarabalıqlarından tapılmış daşın üstündəki yazı aşağıdakı mənanı verir:

Anam a tori (toru), ümi yese (meqsed qoysa), imu (xidmətçi) ve kulu (qulu) ile toxose arizi (hediyye arto (erte - in time) [ah nece] rat (tez) kaso koose (köçə kəsə [yerinde olar]!

Bundan qabaq Lemnos adasındakı ŞAT ARAS adlı 41 yaşlı cavanın məzar daşı üstündəki yazının türkcə səslənməsi də, Herodotun dediyi kimi, Yunanıstan və Kiçik Asiyada yaşamış Pelasq türklərinin tarixi varlığına yazılı təminat idi. Və onların da yunan tayfalarının Balkan yarımadasına hücumlarından sonra dəniz yolu ilə Apenninə, quru yolla Qərbi, Şərqi, Güney Azərbaycana, Gürcüstan və Orta Asiyaya, hətta Sibirə miqrasiya etdikləri ideyasına işıq salırdı. Oralarda Ete elindən və Karia ölkəsindən qalma toponimlər indi də yaşamadadır.

Kitabda etrusk türklərindən etdiyim 20-yə qədər mətnin tərcüməsi ayrıca fəsil kimi verilir. Orada əsasən şəkillərə izahat kimi cızılmış qısa məzmunlu sözlər diqqəti cəlb edir. Etrusk əlifbasında adətən sağdan sola oxunan kəlmələr türkcə səslənib, şəkildə əks olunmuş hadisələri bütün detalları ilə təsvir edir.

Sonrakı fəsillər yenə də şumerlərlə bağlı mövzulara həsr olunub. Onlar barədə bir məqalədə geniş danışmaq olmur. Odur ki, hər birinin məzmununu bir abzasda izah etməli olacağam:

* Ulularımız gil lövhələrdə "suri nuri" - işıq sürətini ölçürlər. Və qəti müəyyən edirlər ki, boruya düşən işığın sürəti çıxan işığın sürətinə bərabərdir.

* Naxçıvanda İlandağ qayaüstü mətni yerli hakim Sərdar ilə Lidiya hökmdarı Karun (~2750-ci illərdə) arasındakı sazişdən bəhs edir. Türkiyədə indi Kef Kalesi adlanan Yazı Haldini qala şəhərinin Karuna satılması barədəki sazişin türkcə əks-sədasıdır. Sonda sövdələşmə baş tutmur. Sərdar Haldiniyə verdiyi min qızıl pul behi geri alır.

* İ.M.Dyakonovun guya "Urartu" mixi yazısından etdiyi və mənasız söz yığınına çevirdiyi bir neçə mətnin türkcə oxunuşu tarixin çox mətləblərindən xəbər verir. Onlardan biri İrəvan (həmən yazıda İribunye) şəhəri barədə təqribən üç min il qabaq aparılmış ölüm-dirim müharibəsinə həsr olunub. Təkcə elə bu yazı üç azərbaycanlı sərkərdənin ağır müharibə zamanı münasibətləri və Azman qala ilə əhatələnmiş şəhərin bizə məxsusluğu barədə daş qəbalədir.

* Növbəti fəsil, məşhur Amerika şumerşünası Piotr Mikalovskinin dediyinə görə, guya atılmış bir məbədin giley-güzarıdır. Əslində isə gil lövhə üzərindəki yazı 3200 il bundan öncə Həmədanda yaşayıb yaratmış BİDA HƏMMƏDANİ adlı şairəmizin poemasıdır. Orada Kürə, Araza, saza müraciət çox mətləblərdən xəbər verir.

* Növbəti fəsil ulluların bazar münasibətlərinin təsviridir. Yəni hansı malı verib hansı miqdarda başqa bir mal almaq olar.

* Həcmcə və informasiya baxımından ən zəngin fəsil babilli şairimiz ŞƏMSİ ƏDƏD ABİ`nin azman poemasıdır. Poemada türkün adı dörd dəfə çəkilir. Yuxarıda haqqında danışdığımız Ete Elinə indiki Səudiyyə Ərəbistanından gəlib orada çoxalmış ərəblərin yerli türklər arasında törətdikləri soyqırımına göz yaşı axıdılır poema boyu. Ete Eli türklərinin dəniz vasitəsilə miqrasiyasından danışılır. Bu, Aralıq dənizi vasitəsilə Apenninə köçüb orada etrusk adını almış Ete Eli türklərinin mənşəyinə işıq salan tutarlı elmi dəlildir.

* Kitabın 662-ci səhifəsində BİKƏ XATUN adlı naməlum şairəmizin azman poemasının tərcüməsi verilib. Poema əsasında ud aləti, Mahur, Rast muğamları barədə məlumat almaq, tarixi türk təqvimini bərpa etmək mümkün olur.

* Növbəti fəsil İranın Luristan vilayətində Kəbir kuh dağındakı qayaüstü yazılı abidənin məzmunu - yerli Türükkü ölkəsinin hökmdarı ANŞAR ilə Hindistandan gəlib qonşuluqda məskən salmış tayfa başçısı - Əhəməni sülaləsinin ilkin lideri Haxameşlin qarşılıqlı münasibətinin təsviridir. Anşar dinsiz-imansız tayfanı Marduka, Ahuraya, Günəşə etiqad bəsləməyə çağırır. Haxameş hər şeyi rədd edir. Bu xüsusdakı təsvir türk-fars münasibətlərinin erkən çağlarına işıq salması baxımından dəyərli materialdır.

* Sonrakı fəsil 1990-cı illərdə Güney Muğanın Xudafərin kəndində tapılmış mumiyaya və onun üstündəki yazının türkcə açımına həsr olunub.



* Bibliyanın "Daniel" adlı kitabında Nəbuhədnəzərin nəvəsi hökmdar Belşəzzərin sarayının divarındakı təsadüfi yazı kimi təsvir olunan "Mənə, mənə..." ifadəsinin təmiz türkcə izahı 2500 illik tarixə səyahətdir. Yazı heç də Nəbuhədnəzərə söyüş-təhqir deyil, o çağlarda baş vermiş tarixi hadisələrin, Kuruşun Babil sarayını mühasirəyə alması və ona müqavimətin inikasıdır.

* Növbəti fəsildə Bahar bayramının tarixi, türkə məxsusluğu yazılı dəlillərlə sübuta yetirilir.

* Mixi mətnlərdən əldə olunmuş faktlarla Muğam tarixinə, muğamatın bir sıra növlərinin mənşəyinə, tarixinə yenidən baxılır, onların min illərdir türk zehninin məhsulu olduğu elmi dəlillərlə göstərilir.

* Digər iki fəsil bir-biri ilə bağlı olub, Aralıq dənizi türkünün tarixinə səyahətdir. Sübut olunur ki, türkün köçüb məskən saldığı yer iki çay arasındakı münbit torpaq olub. Və yeni məskəndə türk özünə yazı yaradıb.

Hazırda biz şumer və etrusk türklərinin şəkilaltı yazılarının açılışına həsr olunmuş 400 səhifəlik kitab üzərində işləyirik. Şəkillər yazıların türk dilində olduğunu sübuta yetirən dəyərli elmi dəlillərdir. Bu kitabın payızda işıq üzü görəcəyinə ümid bəsləyirəm.

***Dr. Tariyel Azərtürk***

# Keşiş Baqrat niyə yoxa çıxdı və niyə qayıtdı?

Uğursuzluğa düçar olduqdan sonra bir müddət qeybə çəkilən, səs-sorağı çıxmayan "Vətən naminə Tavuş" hərəkatının lideri, arxiyepiskop Baqrat Qalstanyan Ermənistanda yenidən zühur edib. Ermənistan mediasında yayılan məlumatlarda bildirilir ki, keşiş bu günlərdə Abovyana gəlib. O, burada liderlik etdiyi hərəkatın aktiv fazasında olduğu kimi, yenidən silsilə görüşlər keçirmək və hakimiyyətə tələblərini çatdırmaq niyyətində olduğunu açıqlayıb. Bəs Baqrat Qalstanyan niyə yoxa çıxmışdı və niyə yenidən kütlə içərisinə çıxdı?

Məğlub Ermənistanda 44 günlük müharibənin və 23 saatlıq antiterror tədbirlərinin nəticələrini sinirə bilməyən revanşist qüvvələrin sülh prosesinə maneçilik törətmək cəhdləri hər kəsə bəllidir. Ancaq revanşistlərin xaricdəki havadarlarından, xüsusən də Fransadan dəstək almaqla həyata keçirdikləri fəaliyyətlər davamlı olaraq nəticəsiz qalır. Azərbaycan addım-addım özünün haqlı tələblərinin həyata keçməsinə nail olur və qanuni məqsədlərinə çatır. Belə olan halda sülhyaratma prosesinə mane olmağa çalışan daxili və xarici qüvvələr kilsə ətrafında cəmləşdilər. Sirr deyil ki, Ermənistanda kilsənin cəmiyyətə təsir imkanları kifayət qədər böyükdür. Kilsə öz təsir imkanlarından bir qayda olaraq məkrli məqsədlər üçün istifadə edir. O cümlədən burada insanların beyninə Azərbaycana və Türkiyəyə qarşı qisasçılıq ideyaları yüklənir, əsassız xülyalar aşılanır. Kilsənin zərərli təbliğatı nəticəsində gənclərin beyninə miflər hakim kəsilib, onlar xəyali Ermənistan barədə uydurmalara inanırlar, real Ermənistanın isə nədən ibarət olduğunu yaddan çıxardırlar.

Ermənistanı sülh prosesindən uzaqlaşdırmaq istəyən qüvvələr indiki məqamda kilsəni revanşist qüvvələrin önünə keçirərkən və "keşiş inqilabı"na rəvac verərəkən məhz bu amilə - kilsənin cəmiyyətə geniş təsir imkanlarına istinad ediblər. Onlar əmindirlər ki, Ermənistanda nüfuzunu itirən, korrupsiyalaşmış müxalifətdən fərqli olaraq insanların hələ də hörmət bəslədikləri din xadimləri revanşizm hərəkatını irəli aparıb tənzimləmə prosesini əngəlləyə bilərlər. Əlbəttə, burada din xadimlərinin təşəbbüsü məmnuniyyətlə ələ almalarını şərtləndirən digər bir mühüm amil elə kilsənin özünün problemləri ilə bağlıdır. Məlumdur ki, Ermənistanın indiki rəhbərliyi ilə kilsə, xüsusən də katolikos II Qaregin arasında ixtilaflar yaşanır. N.Paşinyan son vaxtlarda kilsədəki mənfi faktları, o cümlədəm ianələrin "qara deşikdən" yoxa çıxmasını, vergidən yayınma hallarını tez-tez gündəmə gətirir. Siyasi rəhbərliyin bu qəbildən olan açıqlamaları katolikos üçün yaxşı perspektiv vəd etmir. Buna görə də o, əlindəki rıçaqlardan istifadə etməklə, Paşinyana qarşı formalaşan cəbhəni daha da aktivləşdirməyə çalışır. Heç bir siyasi və idarəçilik keçmişi olmayan Baqratın revanşist hərəkatda yer alması, "keşiş inqilabı"nın bütün ölkə boyunca genişlənməsi də bu planın tərkib hissəsidir.



## Fransanın "keşiş inqilabı" planının "ikinci fazası"

Ermənistanda II Qareginin xeyir-duası və Baqratın rəhbərliyi ilə başlayan "keşiş inqilabı" birinci mərhələdə uğursuzluğa düçar oldu. Hər halda görünən odur ki, Baqrat tərəfdarlarının insanları ödənişli mitinqlərə cəlb etmək taktikası siyasi rəhbərliyə qarşı kütləvi etirazlar dalğasına səbəb olmadı. N.Paşinyan Baqratın görüş tələbini qətiyyətlə rədd etdi. Keşişin ölkə boyunca görüş turnesinə çıxması da bir nəticə vermədi. Beləcə, "keşiş inqilabı" tez populyarlaşdığı kimi, tez də özünə qarşı marağı itirdi.

Birinci fazada yaşanan məğlubiyyət fonunda Baqratın yenidən demarş cəhdində bulunması ondan xəbər verir ki, regionda proseslərin gedişi, o cümlədən də ikitərəfli formatda müzakirələrin intensivləşməsi, sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı ilkin razılaşmaların əldə olunması, bu istiqamətdə yeni mərhələnin başlamasının anons edilməsi regionda qalıcı sülhün əldə edilməsində maraqlı olmayan qüvvələri bərk əndişələndirir. Onların narahatçılığına səbəb olan, həmçinin ABŞ-nin sülhyaratma prosesində fəallığını artırmasıdır. Məlumdur ki, bir neçə gün bundan əvvəl Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri NATO-nun Vaşinqtonda keçirilən yubiley Zirvə görüşü çərçivəsində bir araya gəldilər. ABŞ-nin Dövlət katibi E.Blinken özünün iştirakı ilə keçən görüş barədə optimist açıqlamalar verdi. Preoseslərin bu tərzdə irəliləməsi Cənubi Qafqazda mövcudluğuna nail olmağa çalışan Fransanı qane edə bilməz. Ermənistanın sülh prosesinə mane olmağa hədəflənən manipulyativ davranışları böyük dərəcədə Fransa prezidenti E.Makron tərəfindən istiqamətləndirilir. Bu, inkarolunmaz faktdır. O, Ermənistanın arxasında dayanacağını, birtərəfli qaydada bu ölkəni dəstəkləyəcəyini dəfələrlə bəyan edib. Eləcə də Fransa postmüharibə dövründə Ermənistanı sürətlə silahlandırır. Razılığa əsasən, Fransa yaxın perspektivdə bu ölkəyə hücum silahları tədarük edəcək. Bütün bunların fonunda Baqratın yenidən meydana çıxmasının üstündən sirr pərdələri götürülür. Hasil olan qənaət odur ki, Fransanın təhriki ilə "keşiş inqilabı" yenidən Ermənistanın həyatına qaytarılır. Amma görünən budur ki, ikinci cəhd də uğursuzluğa məhkumdur.

***Mübariz FEYİZLİ***

# "HƏMAS" Parisi ifşa etdi

## Fransa Qəzzada sülh istəmir

Yaxın Şərqdə vəziyyət gərgin olaraq qalır. Qəzza bölgəsində baş verənlər İsrail ilə Fələstin arasında 80 ilə yaxındır ki, davam edən ədavətin bitməsi üçün indiyədək görülən bütün işlərin fiaskoya uğradığını göstərir. Hətta tərəflər arasında 1993-cü ildə bağlanmış sülh sazişindən sonra Yasir Ərəfat, İshaq Rabin və Şimon Peres



Nobel sülh mükafatına layiq görülsələr də, məsələ öz köklü həllini tapmayıb.

Xatırladaq ki, ötən il oktyabrın 7-də HƏMAS qruplaşması İsrailin nəzarətində olan ərazilərə hücum edib. Buna cavab olaraq İsrail ordusu Qəzzada hərbi əməliyyatlara başlayıb. Həmin il noyabrın 24-də Misir və Qətərin vasitəçiliyi ilə HƏMAS və İsrail arasında dörd günlük humanitar atəşkəs əldə olunub. Razılaşmaya əsasən, İsrail həbsxanalarındakı fələstinli yeniyetmə və qadınların azad edilməsi müqabilində Qəzza sektorunda saxlanılan bir qrup girov azadlığa buraxılıb. Sonradan atəşkəs rejimi eyni şərtlərlə daha iki gün uzadılıb. Dekabrın 1-də isə İsrail ordusu HƏMAS-ı atəşkəsi pozmaqda ittiham edərək Qəzzada yenidən hərbi əməliyyatlara başlayıb.

Son vaxtlar isə ABŞ Prezidenti Cozef Bayden Qəzza sektorunda atəşkəs razılaşması ilə bağlı təkliflə çıxış edib. Tərəflər bu təklifi müzakirə etməkdədir. Bir sıra dövlətlər də bölgədə atəşkəsin elan olunmasına, tərəfləri sülhə gəlməyə çağırır. Türkiyə, regiondakı ölkələr, xüsusilə, Qətər, Misir və Səudiyyə Ərəbistanı sabitliyin bərpası üçün müxtəlif təşəbbüslərlə çıxış edir. Amma ortada müsbət nəticə yoxdur.

Belə bir şəraitdə, Fransanın bir sıra KİV-ləri məlumat yayıblar ki, HƏMAS atəşkəslə bağlı danışıqların dayandırıldığını elan edib. Fransız mediası HƏMAS-ın İsrailin mövqeyinə görə Qəzza zolağında atəşkəs danışıqlarını dayandırmaq qərarını açıqlayıb. "Belə ki, HƏMAS siyasi bürosunun rəhbəri İsmayıl Haniyə bir sıra telefon danışıqlarında bölgədəki vasitəçilərə və maraqlı tərəflərə hərəkatın danışıqları dayandırmaq qərarı barədə məlumat verib",-deyə Fransa KİV-ləri iddia edib.

Lakin çox keçmədən Fələstinin HƏMAS hərəkatı Qəzza zolağında münaqişənin həlli üçün İsrail tərəfi ilə danışıqları dayandırmaq qərarına gəldiyi iddia edilən xəbərləri təkzib edib. Bu barədə radikal hərəkatın rəsmi nümayəndəsi İzzət ər-Rişq bildirib. O, bu barədə belə deyib: "Fransa agentliyi tərəfindən dərc edilən və bəzi KİV-lər tərəfindən HƏMAS-ın Xan Yunis yaxınlığında İsrail qüvvələrinin hücumuna cavab olaraq Qəzzada danışıqları dayandırmaq qərarı ilə bağlı yayılan məlumatların heç bir əsası yoxdur".

Görünən odur ki, beynəlxalq birliyin sülh çağırışlarına rəğmən Fransa Yaxın Şərqdə qanlı müharibənin davam etməsində maraqlıdır. Ona görə də, bu ölkənin mediası belə təxribatçı məlumatlar, dezinformasiya yayır. Əsrlərlə müstəmləkəçi siyasət yeritmiş, bir sıra xalqları soyqırıma məruz qoymuş Fransadan bundan artığını gözləmək sadəlövhlük olardı.

***N.TUNAR***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Sürünən zəhərli haqqında bilmədiklərimiz...

## Ümumdünya İlan Günüdür

*Yeganə BAYRAMOVA*

Yəqin ki, bir çox insanın qorxduğu heyvanlar arasında ilanlar ön sırada yer alır. Hətta bəzilərimiz bu canlını fotolarda belə görməkdən belə məmnun deyilik. Azyaşlı uşaqlar üzərində araşdırma aparan alimlər bu nəticəyə gəliblər ki, daha öncə heç bir heyvan görməmiş körpələr belə müxtəlif heyvan fotoları göstərildikdə ilan olan fotolara fərqli cür reaksiya verirlər.

İlanlar insan həyatında və müxtəlif xalqların mədəniyyətində həmişə xüsusi yer tutub. Onlar mifalogiyada ya cəhənnəm məxluqları kimi təsnif edilir, ya da ilahiləşdirilib ibadət olunurdular.

Yeri gəlmişkən, bu gün-iyulun 16-sı Ümumdünya İlan Günü kimi qeyd olunur. İlanların maraqlı xüsusiyyətləri də yetərincə çoxdur. Hazırkı təsnifata görə, dünyada 3600-ə yaxın ilan növü var.

## İlanların çoxu faydalıdır....

3600-ə yaxın ilan növündən yalnız 600-nün, təqribən 17 faizinin zəhəri mövcuddur. İnsanı öldürə biləcək zəhərə malik ilan növlərinin sayı isə daha az - 232-yə yaxındır.

İnsanlar lap qədim zamanlardan ilanlardan faydalanmağa çalışıb. Qədim Romada bəzi ailələr öz həyətlərində, evlərində ilanlar bəsləyib saxlayarlarmış ki, xəstəlik törədən, ziyan verən siçanların, siçovulların kökü kəsilsin.

Bu gün də tibbi-əczaçılıq və kosmetika sənayesində ilan zəhəri qiymətli tibbi xammal kimi geniş tətbiq olunur. İlan zəhərindən istifadə etməklə qan-damar, əsəb, dəri-əzələ sistemi xəstəliklərinin müalicəsində, cərrahiyədə işlədilən müxtəlif dərman preparatları istehsal edilir.



## Bütün ilanlar kar olur...

Başqa sözlə, onların xarici qulaq seyvanı olmadığından ətrafdakı səsləri eşitməkdən məhrumdurlar. Bu, onların aciz olduqları mənasına gəlmir. Onlar ətrafdakı titrəşimləri hiss etmədə ustadırlar. Həmçinin ilanların ağız boşluğunun arxasında xüsusi bir orqan var. Lamisə orqanı, digər adlarıyla “Jacobso”n orqanı və ya vomeronazal orqan olaraq da bilinən bu orqan ilanın dili vasitəsilə ətrafdan topladığı qoxu molekullarını analiz edərək beynə sinirlərlə siqnallar göndərir. Bütün ilanların haça dillərini tez-tez çölə çıxardıb, yenidən içəri soxmasının səbəbi budur.

## İlanların qisası...



Xalq arasında geniş yayılmış inanclardan biri odur ki, kimsə ilan öldürsə, həmin ilanın cütü (ikinci versiyada qardaşları) gəlib ilanın qisasını alacaq. İlanlar əsasən yumurta qoyaraq çoxalır (bəzi gürzə və digər ilan növləri istisnadır). Bu isə o deməkdir ki, ilanlar yumurtadan çıxdıqları andan etibarən valideyn qayğısından məhrum olurlar və elə dünyaya gəldikləri ilk saniyələrdən etibarən qardaşlar arasında qida rəqabəti başlayır. Yumurtadan çıxan balalar hər biri fərqli bir yerə ayrılaraq öz həyatlarını davam etdirirlər. Bəzən yumurtadan yeni çıxan balalardan birini öldürən insanlar digər ilanları gördükdə onların qisas almaq üçün gəldiyini zənn edirlər.

Uzun sözün qısası, heçbir ilan qardaşının və ya cütünün qisasını almaq üçün gəlmir.

## İlanlar ac qarnına nə qədər dayana bilər?

İnsanlardan fərqli olaraq, yetkin ilanlar bir neçə ay qidasız yaşaya bilər. Bəzi ilan növlərinin ovlarını həzm etməsi 3-5 gün çəkir. İlanlar enerjilərini çox sərf etmədikləri üçün tez-tez yeməyə ehtiyac duymurlar. Xüsusilə, qəfəsdə olan ilanlar çox az qidalanır. Kiçik və cavan ilanlar həftədə bir dəfə, yetkin ilanlar isə ayda bir dəfə yemək yeyirlər. Nəhəng pitonlar və anakondalar isə aylarla yeməksiz qala bilərlər.

# Müğənni, aktyor, memar...

## Mirzə Babayevin doğum günüdür



Bu gün estrada musiqisinin banilərindən sayılan M.Babayevin anadan olmasından 111 il ötür. M.Babayev müğənnilik fəaliyyətinə 1940-cı illərin əvvəlində müharibədən qayıdan zaman görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, məşhur müğənni Bülbülün sinfinə daxil olub. Mirzə Babayev 30-dan artıq filmdə rol alıb.

## Xalqın böyük məhəbbətini qazanmışdı...

Azərbaycan Dövlət Konservatoriyasında təhsil alarkən müəllimi hələ o zaman hiss etmişdi ki, Mirzə Babayevin həm də aktyorluq istedadı var. Elə bu istedaddan irəli gəlirdi ki, o, 20-dən artıq filmdə obraz yaratmışdı. Bu gün onun çəkildiyi filmlərə, televiziya verilişlərinə baxdıqca bu böyük sənətkara xalq məhəbbətinin, onun musiqimizin inkişafındakı xidmətlərinin canlı şahidinə çevrilirik. Bu mötəbər musiqi ocağında dünya və milli musiqimizin elmi əsaslarına yiyələnən Mirzə Babayev tezliklə Azərbaycan estradasının ulduzlarından birinə çevrilmişdi. Harada işləməsindən asılı olmayaraq, Mirzə Babayev milli musiqimizin təbliğatçısı idi. Onu yaxşı tanıyır və sevirdilər.

Bənzərsiz səsə malik olan tanınmış müğənni həm də mahir memar idi - O, Bakıda və Azərbaycanın digər şəhərlərində olan bir çox binaların və muzeylərin də layihə müəllifidir.

## Onunla işləyəndə yorulmurdular...

“Dərviş Parisi partladır” filmində Məstəli şahı oynayanda Kamil Rüstəmbəyovun bu filmində aktyor çox orijinal bir obraz yaradıb. Hətta bu vaxta kimi Məstəli şahın teatrdakı ifaçılarından da çox-çox irəli gedə bilib. Onunla işləyən rejissorlar deyirdilər ki, Mirzə Babayev işləyəndə heç yorulmaq bilmirdik. Çəkiliş meydançasında elə əhval-ruhiyyə yaradırdı ki, hamı məmnun qalırdı. Ekranda görünməsi ilə tamaşaçının ovqatına tamam yeni bir ruh gətirirdi. Bir sözlə, o, yaratdığı obrazın əsil memarına çevrilirdi.

## İllər ötsə də unudulmayacaq...

Onun yaradıcılığından cild-cild kitablar yazmaq olar. Çünki onun həyat yolu mədəniyyət və incəsənətimizin zəngin bir dövründən keçir. Onun mahnıları, filmləri uzun illər xalqımızın mənəvi yaddaşında ən həzin duyğular kimi yaşayacaq. Bəli, zaman keçəcək, nəsillər dəyişəcək, amma mənəvi dəyərlərimiz arasında milli musiqimizin əvəzsiz xadimlərindən M.Babayevin yaratdığı mahnılar öz gözəlliyini itirməyəcək. Çünki bu mahnılar xalqımız üçün yaranmışdı və xalq da onların ifaçısını sonsuz məhəbbətlə sevir.

*Yeganə BAYRAMOVA*

# İdman

## “Mançester Yunayted”i “Vilyarreal”a dəyişdi




İspaniyanın “Vilyarreal” komandası heyətinə yeni futbolçu cəlb edib. AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, La Liqa təmsilçisi İngiltərənin “Mançester Yunayted” komandasından Villi Kambvala ilə anlaşıb. 19 yaşlı fransalı müdafiəçi ilə 5 illik müqavilə imzalanıb. O, 2020-ci ildə Fransanın “Soşo” komandasından transfer olunduğu “qırmızı şeytanlar”ın heyətində 10 rəsmi matçda meydana çıxıb. “Transfermarkt” portalı futbolçunun dəyərini 5 milyon avro qiymətləndirir.

## “Şerif” heyətini gücləndirib



UEFA Avropa Liqasının I təsnifat mərhələsində “Zirə”nin rəqibi olan Moldovanın “Şerif” komandası heyətinə yeni futbolçu qatıb.

AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, Tiraspol təmsilçisi nigeriyalı Uçe Qideon Qudladı transfer edib. Yarımmüdafiəçi son olaraq İsrailin “Makkabi” (Petah-Tikva) komandasının formasını geyinib.

Qeyd edək ki, “Zirə” səfərdə keçirilmiş ilk oyunda “Şerif”ə 1:0 hesabı ilə qalib gəlib. Komandalar arasında cavab qarşılaşması iyulun 18-də Bakıda olacaq.

## Azərbaycanlı alpinist dünyanın doqquzuncu zirvəsini fəth edib



Azərbaycanlı alpinist İsrafil Aşurlı dünyanın doqquzuncu zirvəsini - Nanqa Parbatı (8125 metr) fəth edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, idmançı Nanqa Parbata əlavə oksigendən istifadə etmədən qalxıb.

Dünyada hündürlüyü 8 min metrdən yuxarı olan 14 zirvə var və bu fəth Aşurlının yeddinci səkkizminlik zirvəsidir.

Qeyd edək ki, Nanqa Parbat Pakistan ərazisində yerləşən Qərbi Himalayın ən hündür zirvəsi hesab

## Amerika Kubokunun ən yaxşı qapıçısı...



Argentina millisinin üzvü Emiliano Martines Amerika Kubokunun ən yaxşı qapıçısı seçilib.

AZƏRTAC turnirin rəsmi saytına istinadən xəbər verir ki, 31 yaşlı qolkiper buna 6 oyunda cəmi 1 qol buraxmaqla nail olub.

Argentina seçməsi turnirin finalında Kolumbiya yığmasını 1:0 hesabı ilə məğlub edərək tarixində 16-cı dəfə Amerika Kubokunu qazanıb.

Qeyd edək ki, yarışın ən yaxşı futbolçusu isə Kolumbiya millisinin yarımmüdafiəçisi Xames Rodriges seçilib.

## Gimnastlar daha iki medal qazandı







Azərbaycan idmançıları Portuqaliyanın Santarem şəhərində keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə “Scalabis Cup” turnirində daha iki medal qazanıblar. Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yığmanın heyətində Ömər Qasımlı qızıl, Əli Niftəliyev isə gümüş mükafata sahib çıxıblar. Onların hər biri batut gimnastikası üzrə hərəkətlərin icrasında buna nail olublar.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4307
Sifariş: 1594
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli